# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 25 (3441) Cümə axşamı / 30 iyun - 6 iyul 2022-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Ukrayna əks-hücum əməliyyatlarına başlayacaq



Elxan Nuriyev, polkovnik, hərbi ekspert

Rusiya raketlərinin 40 faizi hədəflənən yeri vura bilmir

***Azərbaycan diasporunun Ukraynadakı tanınmış simalarından biri, Ali Radanın hüquq siyasəti və ədalət məhkəməsi komitəsinin məsləhətçisi və Ukrayna Zabitlər Birliyi mərkəzi nəzarət-təftiş komissiyasının sədri olan hərbi ekspert, polkovnik Elxan Nuriyevlə hafta.az üçün bu dəfəki söhbətimizdə Ukraynadakı savaşın artıq 5-ci ayında baş verənlər, Rusiya tərəfinin hərbi əməliyyatlarda, kiçikmiqyaslı olsa da, üstünlüklərinin əsas səbəbləri, Ukrayna ordusunun genişmiqyaslı əks-hücum əməliyyatlarının avqust ayında başlanması ehtimalının nə dərəcədə doğru olması, "G-7" sammitinin Ukrayna ilə bağlı qərarları və s. haqda danışdıq.***

Səh. 3



# Aşqabadda Xəzər müzakirəsi

***İyunun 29-da Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısı keçirilib. Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşılayıb. Dövlət başçıları birgə foto çəkdirdilər. Sonra dövlət başçılarının məhdud tərkibdə görüşü olub. Daha sonra Zirvə Toplantısı çərçivəsində geniş tərkibdə görüş keçirilib. Dövlət başçısı Zirvə Toplantısında çıxış edib:***

***- Hörmətli Sərdar Qurbanquluyeviç. Hörmətli dövlət başçıları. Hörmətli Sammit iştirakçıları. İlk növbədə, bizə göstərilmiş qonaqpərvərliyə və VI Xəzər Sammitinin yüksək səviyyədə təşkilinə görə Sərdar Qurbanquluyeviç Berdiməhəmmədova təşəkkürümü bildirirəm. Bizim görüşümüz Türkmənistanın keçmiş Prezidenti, mənim əziz dostum və qardaşım, Türkmənistan Parlamentinin Xalq Məsləhətinin sədri Qurbanqulu Məlikquluyeviç Berdiməhəmmədovun yubileyi ilə eyni vaxta düşür.***




Qardaş Türkmənistan onun rəhbərliyi ilə müstəqilliyin möhkəmləndirilməsində, beynəlxalq arenada nüfuzunun artmasında, xalqın rifahının yüksəlməsində və iqtisadi inkişafda sanballı uğurlar qazanıb. Qurbanqulu Məlikquluyeviçi şəxsən öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm, ona möhkəm cansağlığı, qardaş Türkmənistan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Sərdar Qurbanquluyeviç, fürsətdən istifadə edib Sizi Türkmənistan Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə bir daha təbrik edirəm. Əminəm ki, Sizin rəhbərliyinizlə Türkmənistan yeni uğurlar qazanacaq.

Azərbaycan ölkələrimizin Xəzərdə qarşılıqlı fəaliyyətinə böyük əhəmiyyət verir. Xəzər dənizinin hüquqi statusuna dair 2018-ci ildə Aktauda imzalanmış Konvensiya tarixi əhəmiyyət kəsb edir. Çoxillik iş nəticəsində imzalanmış bu sənəd Xəzərin hüquqi statusunu müəyyən edib. Konvensiyanın tezliklə qüvvəyə minməsi dövlətlərimizin bundan sonrakı hərtərəfli qarşılıqlı fəaliyyətinə və əməkdaşlığına yönəlmiş daha təsirli tədbirlər görülməsi üçün möhkəm hüquqi zəmin yaradacaq.

Xəzəryanı dövlətlərin əməkdaşlığının müqavilə-hüquqi bazası möhkəmlənir. Təhlükəsizlik, hidrometeorologiya, nəqliyyat, suyun bioloji ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadəsi, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahələrində, habelə qarşılıqlı maraq doğuran başqa sahələrdə sazişlər imzalanıb və qüvvəyə minib.

Əməkdaşlıq barədə sazişlərin yeni layihələri üzərində iş başlanıb. Bu layihələr müzakirə prosesindədir və hazır olduqca imzalanmaq üçün təqdim ediləcək. Xəzər dənizinin dibinin sərhədləri barədə ikitərəfli və çoxtərəfli formatlarda hüquqi cəhətdən məcburi sazişlər də bağlanıb. Xəzəryanı ölkələr arasında dostluq və mehriban qonşuluq münasibətləri, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlığı Təşkilatı, Türk Dövlətləri Təşkilatı, MDB və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlıq Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilidir.

Qeyd etməyə şadam ki, bizim qarşılıqlı fəaliyyətimizin əsasını bütün tərəflərin mənafelərinin nəzərə alınması, Xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq təşkil edir. Xəzər dənizi bizim regionun xalqlarının rifahının yüksəldilməsinə yönəlmiş bir çox beynəlxalq və regional layihələrin mühüm tərkib hissəsidir. Qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın inkişafı, investisiya mühitinin yaxşılaşdırılması, etibarlı və təhlükəsiz kommunikasiyaların qurulması, yüksək rentabelli və ekoloji təmiz texnologiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasına çalışmaq sahilyanı dövlətlərin əsas prioritetləri olaraq qalır.

Nəqliyyat infrastrukturunun inkişafı, nəqliyyat xidmətlərinin və multimodal daşımaların keyfiyyətinin yaxşılaşdırılması əməkdaşlığın mühüm istiqamətidir. Nəqliyyat sahəsində Xəzəryanı dövlətlər arasında bağlanmış ikitərəfli və çoxtərəfli müqavilələr Xəzər dənizi regionunun inkişaf etmiş infrastruktura malik iri beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün yaxşı təməl yaradır.

Bu gün Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən biridir. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında mühüm rol oynayır. Biz Transxəzər beynəlxalq nəqliyyat marşrutunun səmərəli istifadəsinə səy göstəririk. Bu marşrut Xəzəryanı dövlətlərin nəqliyyat potensialından maksimum dərəcədə istifadə etməyə imkan verəcək və nəqliyyat infrastrukturunun inkişafına dair yeni layihələrin həyata keçirilməsinə şərait yaradacaq.

Biz Şərq-Qərb və Şimal-Cənub marşrutları üzrə Azərbaycan ərazisindən keçməklə yükdaşımaların hər il artmasını müşahidə edirik. Yeni Ələt Beynəlxalq Dəniz Ticarət Limanından gələn tranzit yüklərin həcmi artır.

Səh. 2

**Tofiq Zülfüqarov, keçmiş xarici işlər naziri:**



- Zənnimcə, Rusiyanın növbəti dəfə Xəzər dənizindən Ukraynaya raket atması ilə Aşqabaddakı sammitin ciddi əlaqəsi yoxdur. Hesab edirəm, Rusiyanın raket ehtiyatları azalıb. Odur ki, uzaq məsafədə olmasından asılı olmayaraq, onlardan müxtəlif istiqamətlərdəki hərbi bazaları vasitəsi ilə istifadə etməyə məcburdurlar. Bilirsiniz ki, hazırda Kreml üçün Qara dənizdən uzaqmənzilli raketlərin atılması çətindir. Ukrayna Silahlı Qüvvələri Rusiyanın həmin dənizdə olan hərbi gəmilərini vurur. Odur ki, Kiyevə zərbələrin məhz Xəzər dənizi vasitəsilə endirilməsini məhz Xəzər sammitiöncəsi Moskvanın güc nümayiş etdirməsi kimi dəyərləndirmənin tərəfdarı deyiləm. Əslində, Xəzərlə bağlı da real vəziyyəti gizlətmək mümkün deyil. Yeni bir siyasi dövr yaşanır. Xəzər regionunda və Orta Asiyada postsovet dövründə də indiyədək Rusiyanın nüfuzu yüksək idi. İndi görürük ki, artıq regionda Qərb də, Çin də, Türkiyə də fəallaşıb. Yəni ciddi iqtisadi-siyasi proseslər gedir. Cənub hissəni götürsək, orada Əfqanıstanla sərhəd regionlarında taliblərin də çox fəal olduğunu görürük. Bu baxımdan vəziyyət heç də birmənalı deyil. O ki qaldı konkret budəfəki Xəzər dənizi sammitinə, doğrusu, müsbət bir irəliləyiş gözləmirəm. İndi bəllidir ki, 4 Xəzəryanı ölkə eyni mövqedədir. Türkmənistanın da mövqeyi 3 ölkəyə yaxınlaşır. İran həmişəki kimi öz mövqeyindədir. Bu mənada, Aşqabad sammitindən sonra hansısa ciddi dəyişiklikləri gözləmək o qədər də məntiqli görsənmir. İran mövcud mərhələdə başa düşür ki, o, Rusiya üçün çox vacib ticarət, iqtisadiyyat, kommunikasiya partnyorudur. Bu mənada Tehrana Xəzərlə bağlı ümumi mövqeyə keçməsi üçün hansısa təzyiqlərin reallaşacağını gözləmirəm. Sadəcə olaraq Rusiya göstərmək istəyir ki, izolə olunmasına rəğmən hələ də onun Mərkəzi Asiya və Xəzər regionunda fəallıq, nüfuz zonası mövcuddur. Yəni bu dəfəki Xəzər sammitinin özü Rusiya tərəfindən "Biz də varıq" mesajı kimi görsənir. Lakin təbii ki, reallığı hamı görür".

MÜSAHİB



**Araz Əlizadə,** Azərbaycan Sosial-Demokrat Partiyasının sədri

■ Azərbaycan müharibəyə hazırlaşmır, Azərbaycan müharibəyə hazırdır

■ Rusiya-Ukrayna müharibəsinin nəticəsi artıq məlumdur; Rusiya qalib gəlib

■ Azərbaycan tələb etməlidir ki, ruslar separatçı Arutunyanı həbs edib bizə təhvil versin

Səh. 5

GÜNÜN FOTOSU...



**Türkiyəli general azərbaycanlı yanğınsöndürənlərə hədiyyələr təqdim etdi**

GÜNÜN SİTATI

"Hesab edirəm ki, biz münasibətlərimizdə olan bir çox potensialdan tam istifadə edə bilməmişik"



**Seyid İbrahim Rəisi,** İran Prezidenti

KARİKATURA



**Erməni təfəkkürü**

## Kəlbəcərdən Ermənistana ünvanlanan mesaj

**Qabil Hüseynli,** politoloq, professor

Prezident çox kəskin və birmənalı formada Ermənistan tərəfinə xəbərdarlıq etdi.

Səh. 3

STATİSTİKA



■ **83 nəfərə "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.** Bu şərəfli ada Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrində xidmət etmiş 2 general-leytenant, 3 general-mayor, 10 polkovnik, 13 polkovnik-leytenant, 1 nəfər 1-ci dərəcəli kapitan, 18 mayor, 13 kapitan, 6 baş leytenant, 6 baş gizir, 2 gizir, 5 kiçik gizir, 1 kiçik miçman və 3 əsgər layiq görülüb.

Vətən Müharibəsi Qəhrəmanı adı verilən hərbçilərimizin 34 nəfəri döyüşlərdə şəhid olub, 49 nəfər isə salamatdır.



Səh. 6

## Kəlbəcər və Laçının iqtisadi potensialı

PREZİDENTİN İŞ GÜNÜ

## Prezident İlham Əliyev İbrahim Rəisi ilə görüşüb



**İyunun 29-da Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olub. İran Prezidentini salamlayan Azərbaycan Prezidenti İlham Əliyev deyib:**

- Sizi görməyimə çox şadam. Keçən dəfə də burada - Türkmənistanda görüşmüşdük, bu dəfə də. Keçən görüşdən sonra münasibətlərimizə çox gözəl təkan verildi və əlaqələrimiz daha da sürətlə inkişaf etməyə başlamışdır. Hökumət üzvlərinin qarşılıqlı səfərləri təşkil edildi. Bir sıra məsələlərlə bağlı çox yaxşı irəliləyiş var, xüsusilə nəqliyyat, energetika və digər sahələrdə. Ona görə əminəm ki, bugünkü görüşdən sonra da əlaqələrimizin inkişafına növbəti təkan veriləcək və qardaş xalqlarımızın birgə gələcəyi təmin ediləcək. Xalqlarımızın ortaq tarixi münasibətlərimiz üçün çox gözəl təməldir.

İran Prezidenti Seyid İbrahim Rəisi deyib:

- Mehriban və bağışlayan Allahın adı ilə. Mən də Sizinlə görüşməkdən çox məmnunam. Düşünürəm, Xəzər dənizi ilə bağlı önəmli məsələlərdən biri budur ki, Xəzəryanı ölkələrin dövlət başçıları mütəmadi olaraq görüşürlər. Əlbəttə, Zati-alinizin Tehrana səfər etmək, mənim də Bakıya səfər etmək kimi planlarımız var.

Lakin bizim belə platformalardan istifadə edib görüş keçirməyimiz də münasibətlərimizin inkişafına kömək edir. İki ölkə arasında münasibətlərin potensialı hazırda mövcud olandan daha çoxdur. Hesab edirəm ki, biz münasibətlərimizdə olan bir çox potensialdan tam istifadə edə bilməmişik.

Düşünürəm ki, iki ölkə arasındakı siyasi, iqtisadi münasibətlər, ticarət, mədəniyyət əlaqələri mövcud olan vəziyyətdən daha da inkişaf etdirilə bilər.

## "Anadolu Qartalı - 2022" təlimində "Yüksək səviyyəli müşahidəçi günü" keçirilib



**Türkiyə Respublikasının Konya şəhərində təşkil olunan "Anadolu Qartalı - 2022" beynəlxalq taktiki-uçuş təlimi çərçivəsində "Yüksək səviyyəli müşahidəçi günü" keçirilib.**

Müdafiə Nazirliyindən hafta.az-a verilən məlumata görə, tədbirdə Hərbi Hava Qüvvələri komandanının müavini general-mayor Namiq İslamzadə iştirak edib.

Əvvəlcə qonaqlara təlimin gedişatı, qarşıya qoyulan tapşırıqların məqsədi və yerinə yetirilmə dərəcəsi barədə brifinq təqdim olunub, Sonra "Anadolu Qartalı - 2022" beynəlxalq taktiki-uçuş təlimi ilə bağlı qısametrajlı film nümayiş etdirilib.

Tədbirdə qardaş, dost və müttəfiq ölkələrin hərbi hava qüvvələrinin şəxsi heyəti ilə birgə keçirilən beynəlxalq təlimə Türkiyənin ev sahibliyi etməsinin qürurverici amil olduğu diqqətə çatdırılıb.

Təlim iştirakçılarının peşəkarlığı yüksək qiymətləndirilib və onlara gələcək xidmətlərində müvəffəqiyyətlər arzulanıb.

Sonra qonaqlara Türkiyə Hərbi Hava Qüvvələrinin "Solo Türk" və "Türk Yıldızları" aviaqrupunun iştirakı ilə nümunəvi uçuşlar təqdim olunub. Sonda xatirə fotosu çəkdirilib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Aşqabadda Xəzər müzakirəsi

## Gündəm

əvvəli 1-ci səhifədə



Bu limanın tikilməsi və istifadəyə verilməsi Xəzərdə nəqliyyat-logistika infrastrukturunun inkişafı işinə Azərbaycanın daha bir mühüm töhfəsi olub.

Bu il Azərbaycanda Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin koordinasiya şurasının VIII görüşünün keçirilməsi də planlaşdırılır.

Azərbaycan Vətən müharibəsində Qələbədən və Ermənistanla münaqişənin həllindən sonra Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası, o cümlədən beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı üzrə genişmiqyaslı işlər görməyə başlayıb. Zəngəzur dəhlizi artıq reallığa çevrilir.

Biz ətraf mühitin bugünkü vəziyyəti ilə əlaqədar sahilyanı dövlətlərin narahatlığına şərikik. Azərbaycan Xəzər dənizinin ekoloji problemlərinin həlli üçün əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Xəzərin bioloji su ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadəsi üzrə komissiya çərçivəsində Xəzəryanı dövlətlərin uğurlu qarşılıqlı fəaliyyəti davam edir. Bu ilin sonunda Bakıda "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının tərəflərinin VI konfransının keçirilməsi nəzərdə tutulub. Bu gün məhdud tərkibdə görüşdə biz xüsusi narahatlıq doğuran məsələlər, konkret olaraq Xəzər dənizinin dayazlaşması barədə həmkarlarımızla fikir mübadiləsi apardıq. Biz bunu uzun illər boyu müşahidə edirik və təəssüf ki, dayazlaşma dinamikası narahatlıq doğurur. Buna görə biz fikir mübadiləsi apardıq və yəqin ki, nümayəndə heyətlərimiz belə ekoloji fəlakətin səbəblərinin aşkar edilməsi və Xəzərin bundan sonrakı dayazlaşmasının qarşısını almağa yönəlmiş tədbirlərin müəyyənləşdirilməsi üçün xüsusi ekspert qruplarının yaradılması işini davam etdirəcəklər.

> *Bu il Azərbaycanda Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin koordinasiya şurasının VIII görüşünün keçirilməsi də planlaşdırılır*

Sonda, icazə verin, bizim Sammitin səmərəli təşkilinə görə Türkmənistan tərəfinə bir daha təşəkkürümü bildirim. Əminəm ki, bu Sammit Xəzəryanı dövlətlərin qarşısında duran mühüm ümumi məsələlərin həllinə yönəlmiş səylərin birləşdirilməsinə şərait yaradacaq. Diqqətinizə görə təşəkkür edirəm.



Zirvə Toplantısında çıxış edən İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin sammitin əhəmiyyətini vurğuladılar.

■ **Rusiya Prezidenti Vladimir Putin Xəzəryanı ölkələrin (Rusiya, Azərbaycan, İran, Qazaxıstan və Türkmənistan) energetika sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün böyük potensialının olduğunu bildirib.** "Bu Xəzər "beşliyi"nin energetika sahəsində əməkdaşlıq üçün böyük imkanları var", - Putin əlavə edib.

Rusiya Prezidenti Xəzər akvatoriyasındakı neft və qaz yataqlarının müştərək istismarı barədə artıq razılaşmaların olduğunu diqqətə çatdırıb: "Bu, tərəflərin maraqlarını şüurlu və məntiqli şəkildə qorumaq, Xəzər dənizinin təbii sərvətlərindən energetikanın həm ənənəvi, həm də innovativ sektorlarında istifadə etməyə imkan verir".

Onun sözlərinə görə, Rusiya əsas hədəfləri olaraq regional ticarət-investisiya əlaqələrinin, qarşılıqlı faydalı sənaye və yüksək texnologiya kooperasiyalarının gücləndirilməsini görür: "Rusiyanın Xəzəryanı ölkələrlə ticarət həcmi müntəzəm şəkildə artır. Təkcə 2021-ci ildə ticarət dövriyyəsi 35%-dən çox artıb". Putin bu ilin yanvar-aprel aylarında həmin göstəricinin daha çox artacağını söyləyib.

### Azərbaycan Prezidenti türkmənistanlı həmkarı ilə görüşüb

**İyunun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Aşqabadda Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşü olub.**

Dövlətimizin başçısını Aşqabadda salamlamaqdan məmnunluğunu bildirən Prezident Sərdar Berdiməhəmmədov Zirvə Toplantısına dəvəti qəbul edib iştirak etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. İlk sammitin 2002-ci ildə Aşqabadda keçirildiyini xatırladan Türkmənistan Prezidenti həmin tədbirdə uzunmüddətli perspektiv üçün əməkdaşlığın əsasının qoyulduğunu vurğuladı. Sərdar Berdiməhəmmədov 2018-ci ildə Xəzərin hüquqi statusu haqqında Konvensiyanın imzalanmasına toxundu, Xəzər dənizində nəqliyyat, gəmiçilik, sülhün, ekoloji təhlükəsizliyin qorunması, balıqçılıq, fövqəladə hallar barədə xəbərdarlıq və onların qarşısının alınması sahələrində əməkdaşlıq barədə bir çox müqavilə üzrə işin aparıldığını dedi. Xəzər dənizinin ümumi sərvət olduğunu deyən Türkmənistanın dövlət başçısı regionda səmərəli qarşılıqlı fəaliyyətin inkişafına verdiyi şəxsi töhfəsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Dəvətə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev, ilk növbədə Sərdar Berdiməhəmmədovu Türkmənistan Prezidenti vəzifəsinə seçilməsi münasibətilə şəxsən təbrik etdi, fəaliyyətində uğurlar arzuladı. Azərbaycan Prezidenti bununla bağlı Sərdar Berdiməhəmmədova məktub ünvanladığını və telefonla təbrik etdiyini məmnunluqla xatırladı. Dövlətimizin başçısı son vaxtlar Türkmənistanda əldə olunan davamlı inkişafın Sərdar Berdiməhəmmədovun rəhbərliyi ilə də davam etdiriləcəyinə əminliyini bildirdi.

Zirvə Toplantısının əhəmiyyətinə toxunan Prezident İlham Əliyev 20 il əvvəl Xəzəryanı dövlətlərin sammitinin keçirilməsinin təşəbbüskarının Türkmənistanın olduğunu qeyd etdi və həmin sammitin Xəzərdə geniş və çoxtərəfli əməkdaşlığın əsasını qoyduğunu, Konvensiyanın imzalanmasının önəmini vurğuladı.

Türkmənistanın Xəzər dənizində və Xəzəryanı dövlətlər arasında əməkdaşlığa töhfəsini yüksək qiymətləndirən Azərbaycan Prezidenti bugünkü Zirvə Toplantısının təhlükəsizlik, ekologiya, su ehtiyatları istiqamətləri üzrə əməkdaşlığın möhkəmlənməsi işində daha bir addım olacağına əminliyini bildirdi. Xəzərin əsrlər boyu qonşu kimi yaşamış xalqlarımızı birləşdirən dəniz olduğunu deyən Prezident İlham Əliyev regionumuzda gələcək təhlükəsiz inkişafın təmin ediləcəyinə əminliyini bildirdi, bu işdə Xəzəryanı dövlətlərin böyük rolunu vurğuladı.

İkitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı bildirdi ki, biz bu əlaqələri yüksək qiymətləndiririk. Prezident İlham Əliyev gələcəkdə dövlətlərarası əlaqələrimizin səviyyəsini daha yüksəyə qaldırmaq üçün Prezident Sərdar Berdiməhəmmədov ilə ikitərəfli formatda da fəal işin aparılacağına əminliyini ifadə etdi.

### Prezidenti İlham Əliyev Qurbanqulu Berdiməhəmmədov ilə görüşüb

**İyunun 29-da Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub.**

Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısına dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Qurbanqulu Berdiməhəmmədov 2002-ci ildə Aşqabadda keçirilmiş birinci sammitdə ulu öndər Heydər Əliyevin də iştirak etdiyini dərin ehtiramla yad etdi.

Xəzər dənizinin mehriban qonşuluq və sülh dənizi olduğunu qeyd edən Qurbanqulu Berdiməhəmmədov bu görüşün ümumi mənafelərimiz naminə Xəzərdə əməkdaşlığa yaxşı təkan verəcəyinə əminliyini bildirdi. Bakı sammitində mühüm məsələlərin müzakirə olunduğunu xatırladan Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın qəbul olunmasının əhəmiyyətini vurğuladı.

Bu il Azərbaycan ilə Türkmənistan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edildiyini deyən Qurbanqulu Berdiməhəmmədov ötən illər ərzində siyasi, iqtisadi-ticari və mədəni-humanitar sahələrdə böyük işlərin görüldüyünü vurğuladı. Türkmənistanın neytral statusunu daim dəstəklədiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Qurbanqulu Berdiməhəmmədov ölkəsinin Azərbaycan Prezidentinin beynəlxalq arenada qarşılıqlı hörmətə və etimada əsaslanan təşəbbüslərinə verdiyi daimi dəstəyi qeyd etdi.

Qurbanqulu Berdiməhəmmədov dövlətlərimizin birgə təşəbbüsləri ilə logistika və nəqliyyat-tranzit dəhlizlərinin qurulmasının önəmini, iqtisadi əlaqələrimizin bundan sonra da inkişaf etdiriləcəyini vurğuladı.

Türkmənistanın Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qəbul edilməsinə və fəaliyyətinə verilən yüksək qiymətə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirən Qurbanqulu Berdiməhəmmədov parlamentlərarası əlaqələrin də uğurla inkişaf etdiyini, ölkəsinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı Konfransına geniş nümayəndə heyəti ilə qatıldığını dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Qurbanqulu Berdiməhəmmədovu yubileyi münasibətilə təbrik etdi, qardaş Türkmənistanın inkişafı naminə bundan sonrakı fəaliyyətində də ona uğurlar arzuladı.

Dövlətimizin başçısı Qurbanqulu Berdiməhəmmədovun rəhbərliyi illərində Türkmənistanın neytrallıq statusunu möhkəmləndirməklə yanaşı, müstəqil xarici siyasət yürüdərək beynəlxalq arenada nüfuz qazandığını, sürətlə inkişaf etdiyini, paytaxt Aşqabadın ildən-ilə gözəlləşdiyini bildirdi.



Ortaq söykökünə malik qardaş ölkəyə yenidən səfər etməkdən məmnunluğunu vurğulayan dövlətimizin başçısı Türkmənistanın yeni Prezidenti Sərdar Berdiməhəmmədovun da ölkəni inkişaf və tərəqqi yolu ilə aparacağına əminliyini ifadə etdi.

İkitərəfli münasibətlərə toxunan Prezident İlham Əliyev ölkələrimizin qarşılıqlı dəstəyini vurğuladı. Azərbaycan Prezidenti həm ikitərəfli, həm də çoxtərəfli formatda ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd etdi, əsas məqsədin əməkdaşlığı dərinləşdirmək, qarşılıqlı siyasi fəaliyyəti daha da möhkəmləndirmək, mədəni əlaqələrin potensialını tam üzə çıxarmaq olduğunu dedi.

> *Biz ətraf mühitin bugünkü vəziyyəti ilə əlaqədar sahilyanı dövlətlərin narahatlığına şərikik*

Xəzər dənizindən keçməklə Türkmənistanla Azərbaycan arasında yük axınının artdığını vurğulayan Prezident İlham Əliyev bildirdi ki, bu, həm ölkələrimizin, həm də qonşularımızın mənafelərinə uyğundur.

Bu gün Xəzərdən keçən nəqliyyat marşrutu xüsusi əhəmiyyət kəsb edir. Həm Türkmənistanda, həm də Azərbaycanda müasir dəniz limanları inşa edilib, dəmir yolu infrastrukturuna böyük sərmayə qoyulub.

Zirvə Toplantısının əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev ilk sammitin də 20 il əvvəl Türkmənistanın təşəbbüsü ilə keçirildiyini xatırlatdı. Azərbaycan Prezidenti əmin olduğunu bildirdi ki, VI Zirvə Toplantısında qəbul ediləcək qərarlar Xəzərin potensialını tam reallaşdırmağa, onu sülh, təhlükəsizlik, əməkdaşlıq və ekoloji cəhətdən təmiz zona kimi qoruyub saxlamağa imkan verəcək.

# Ukrayna əks-hücum əməliyyatlarına başlayacaq



**Elxan Nuriyev,**
polkovnik, hərbi ekspert

Müsahib

**Azərbaycan diasporunun Ukraynadakı tanınmış simalarından biri, Ali Radanın hüquq siyasəti və ədalət məhkəməsi komitəsinin məsləhətçisi və Ukrayna Zabitlər Birliyi mərkəzi nəzarət-təftiş komissiyasının sədri olan hərbi ekspert, polkovnik Elxan Nuriyevlə hafta.az üçün bu dəfəki söhbətimizdə Ukraynadakı savaşın artıq 5-ci ayında baş verənlər, Rusiya tərəfinin hərbi əməliyyatlarda, kiçikmiqyaslı olsa da, üstünlüklərinin əsas səbəbləri, Ukrayna ordusunun genişmiqyaslı əks-hücum əməliyyatlarının avqust ayında başlanması ehtimalının nə dərəcədə doğru olması, "G-7" sammitinin Ukrayna ilə bağlı qərarları və s. haqda danışdıq.**

***- Elxan bəy, Qərbin bütün iqtisadi, maliyyə sanksiyalarına və Ukraynaya mümkün silah və texnika tədarükünə rəğmən Rusiyanın cəbhədə hələ də, kiçik də olsa, müəyyən uğurlar əldə etməsinin əsas səbəbləri hansılardır?***

- Bunun bir neçə əsas səbəbi var. Birinci səbəb ondan ibarətdir ki, Rusiya tərəfi canlı qüvvə və texnikasının sayca bir neçə dəfə çoxluğundan yararlanaraq kütləvi hücumlar təşkil edir və nəinki qarşı tərəfdəki dinc mülki vətəndaşların, hətta öz hərbçilərinin çoxsaylı itkilərinə belə, əhəmiyyət vermir. Məsələn, may ayının 22-də Rusiya siyasi hakimiyyətinə məlumat verilmişdi ki, guya Severodonetsk şəhəri artıq Rusiya ordusunun nəzarətindədir. Halbuki, Ukrayna Silahlı Qüvvələrinin komandanlığı hərbçilərin və mülkilərin həyatını qorumaq naminə və digər tərəfdən də Qərbdən gələn müasir silahların taktiki-texniki göstəricilərinə uyğunlaşmaq baxımından lazım bildiyi ərazilərdə gərəkli yerdəyişmələr edir və yeni qruplaşmalar yaradır.

Dediyim kimi, Rusiya əlində olan bütün vasitələrdən, aviasiyadan, raket və artilleriya qurğularından yararlanaraq öz məqsədinə çatmağa çalışır, ancaq Ukrayna tərəfinin ciddi və böyük müqaviməti ilə qarşılaşır. Bununla belə, Rusiya müvəqqəti tutduğu əraziləri özününküləşdirməyə çalışsa da, Ukrayna ordusu Qərbdən yeni-yeni silahlar aldıqca, onları yerlərdəki hərbi birləşmələrə təhvil verdikcə, onlarla bağlı təlimlər keçdikcə tezliklə savaşda dönüş yaradacağına əmindir...

***- Müharibə başlanandan Ukraynaya Qərbdən hansı müasir silahlar göndərilib və onların taktiki-texniki üstünlükləri nədən ibarətdir?***

- Qərbdən gələn silahlar əsasən artilleriya qurğuları, hava hücumundan müdafiə qurğuları, zirehli texnika əleyhinə qumbaratanlar və s. Bunlar arasında "Stinger"lər, "Javelin"lər, "Nlavs" adlı tank əleyhinə raketlər üstünlük təşkil edir. "Stinger" və "Nlavs"lar həm aviasiya, həm zirehli texnikaya qarşı, "Javelin"lər isə yalnız zirehli texnikaya, yəni PDM, ZTR və tanklara qarşı işlənir. Şərqi Avropa ölkələrindən "S-300" HHM qurğuları, zirehli maşınlar, tanklar verilib. Bir sözlə, son günlərədək Ukraynaya əsasən müdafiə silahları tədarük edilib. Artıq bu günlərdən başlayaraq hücum silah və texnikalarının verilməsinə başlanıb. Bu da "lend-liz" proqramının ləngiməsi ilə bağlıdır. Mayın 9-da "lend-liz" haqda qərar verildi, mayın 16-da isə maliyyə ayrıldı. Bundan sonra həmin silah və texnikanın ABŞ-da gəmilərə yüklənməsi, Atlantik okeanından keçib gəlməsi, sonra hansı limanlardasa boşaldılması, yenidən quru yoluyla Ukraynaya gəlib çıxması, hərbi hissələrə paylanılması və onların öyrənilməsi - bunlar hamısı zaman tələb edən məsələlərdir.

Amma bütün hallarda ABŞ-dan, Kanadadan, Böyük Britaniyadan, Avstraliyadan, həmçinin İspaniyadan, Portuqaliyadan, eləcə də Ukrayna ilə həmsərhəd olan Polşa, Çexiya, Slovakiyadan silah və texnika çatdırılmasında ciddi problemimiz yoxdur. Sadəcə, bir müddət silah tədarükünü ləngidən özlərini Avropa ölkələrinin "ağsaqqalı" hesab edən Almaniya, Fransa və İtaliyadan başqa heç bir digər müttəfiq, dost sayılan ölkələri günahlandırmağa haqqımız yoxdur. Adıçəkilən 3 ölkənin lideri isə Ukraynaya səfərlər edib Buçada, İrpendə baş verənləri gözləri ilə gördükdən sonra onlarda da müəyyən fikir dəyişiklikləri yarandı. Və son vaxtlar Almaniya tank əleyhinə qurğular göndərib, Fransa və İtaliya da müəyyən qurğular göndərməyə başlayıb...

***- Bəzən Rusiyanın rəsmi və ya qeyri-rəsmi mənbələri Amerika, yaxud Avropadan göndərilmiş silah və texnikaların toplu halında vurulması haqda informasiyalar yayırlar. Bunlar nə dərəcədə həqiqətə uyğundur?***

- Belə məlumatların heç biri həqiqətə uyğun deyil. Çünki əvvəla, belə hal, demək olar ki, olmayıb. İkincisi də, Ukraynanın Qərb sərhədlərində 5 Avropa ölkəsi var. Bu mənada ölkəmizə həmin ölkələrdən onlarla yox, yüzlərlə avtomobil və dəmir yolları gəlir, yəni yüzlərlə giriş-çıxış var. Üstəlik, silah və texnikaların Ukraynaya tədarükü tam ciddi təhlükəsizlik şəraitində icra edilir. Yəni onların haradan və necə keçirilməsi yüksək səviyyədə qorunan hərbi sirr olaraq qalır. Bunu bilənlər barmaqla sayıla bilər. Bəzi hallarda hətta silah və texnikalar hissə-hissə göndərilir. Necə ki, biz 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində silahları unun, digər ərzaqların içərisində keçirdirdik, hazırda Ukraynada da oxşar tədbirlər daha texnoloji formada həyata keçirilir. Bu mənada Rusiyanın Qərbdən gələn silah və texnika karvanlarını vurması, demək olar ki, qeyri-mümkündür. Dəmir yollarını müəyyən dərəcədə vurmaq mümkündür. Qatarla nə vaxt, haradan gətiriləcəyini də bilmirlər. Sadəcə, dəmir yolundakı müəyyən ifrastrukturlara zərbələr endirməyə çalışırlar. Buna bəzən müəyyən mənada nail olurlar. Fəqət bu da kütləvi xarakter daşımır. Bir sözlə, Rusiya tərəfinin Qərbdə gələn hansısa silah, texnika karvanını vurması haqda bizdə elə bir ciddi məlumat olmayıb...

> *"Rusiya raketlərinin 40 faizi hədəflənən yeri vura bilmir*

Bundan əlavə, Rusiya raketləri və artilleriya qurğularının hədəfdən kifayət qədər yayınma problemi var. Çünki onlar hələ də 70-80-ci illərin geridə qalmış, pas bağlamış, korrektirovkası pozulmuş raketlərindən istifadə edir... Özüm ixtisasca həm də elektron aparatlar mütəxəssisi olduğumdan bunu qısaca izah edə bilərəm. On illərlə saxlanılan raketlərdə uçuşu təmin edən platalardakı kondensatorlar quruya bilər. Bu və digər səbəblərdən Rusiyanın köhnə raketlərinin dağıdıcı gücləri qalır, amma dəqiqliklərində problemlər var. Demək olar ki, onların 40 faizə qədəri hədəflənən yerə düşmür. Bu, rəsmi statistikadır...

***- Məsələn, rəsmi Moskva iyunun 26-da Kiyevə atılan raketlərlə "Artyom" raket istehsalı zavodunu vurduğunu bildirdi. Doğrudan da həmin zavodun ərazisinə raket düşübmü?***

- Xeyr, əslində, bildiyiniz kimi, Kiyevə atılan raketlər yaşayış binalarına düşüb. İkincisi də, "Artyom" zavodu işləmir, sovet dövründən - 1980-ci illərdən bağlanıb. Rusiya siyasi və hərbi rəhbərliyi isə guya həmin "raket zavodu"nu vurmaqla fəxr edir...

***- Yeri gəlmişkən, 26 iyun, səhər saatlarında Rusiyanın Kiyevə atdığı raketlərdən birinin Azərbaycanın Ukraynadakı səfirliyinin yaxınlığına düşməsi və səfirlik binasının zədələnməsi, divarlarda çatlar əmələ gəlməsi haqda məlumatlar yayılıb. Bəzi siyasi şərhçilər Xəzər dənizi vasitəsi ilə atıldığı deyilən bu raket zərbəsinin Azərbaycana da bir mesaj olduğunu bildirirlər. Siz bu məsələyə necə baxırsız?***

- Mən Kiyevə endirilmiş sözügedən raket zərbəsini belə şərh etməyin əleyhinəyəm. Burada heç bir mesaj-filan yoxdur Əvvəla, raket Azərbaycan səfirliyindən bir neçə yüz metr məsafəyə düşüb. Və bu, təsadüfdür. Sadəcə, rayon eyni rayondur.. Və onu da deyim ki, həmin ərazidə bir çox digər ölkələrin də səfirlikləri var.

Azərbaycan səfirliyi, ərazisinə görə, demək olar ki, Ukraynada ən böyük səfirlikdir. 7-8 hektarlıq ağaclıq bir ərazidədir. İkincisi də, deyildiyi kimi, heç bir ciddi zədə-filan da dəyməyib səfirlik binasına... Məlumatlar şişirdilir Üçüncüsü də, həmişə dediyimiz kimi, heç Rusiya hərbçiləri nəzərdə tutduqları hədəfləri vura bilirlər ki? Atdıqları mərmi və raketlərin 40 faizi tamamilə hədəfdən yayınır...

***- "G-7" ölkələrinin son sammitinin qərarları Ukrayna Silahlı Qüvvələrinin nə vəd edir?***

- "G-7" sammiti iyunun 26-da Ukraynaya müddətsiz maliyyə və hərbi yardımlar edilməsi haqda qərar verdi. Müddətsiz nə deməkdir? Yəni Ukrayna müharibəni udana qədər, öz ərazisini işğalçı düşməndən təmizləyənə qədər Ukrayna dövlətinə və Silahlı Qüvvələrinə yardımlar ediləcək... Ertəsi gün - iyunun 27-də də Böyük Britaniya baş naziri Boris Consonun təklifi ilə məsələyə təkrar olaraq olaraq baxılıb, yeni təkliflər verilib. Bu mənada bizim gözləntilərimiz çox müsbətdir...

***- Siz necə hesab edirsiniz, Ukraynanın bir sıra rəsmilərinin və ekspertlərinin dediyi kimi, genişmiqyaslı əks-hücum əməliyyatları avqust ayında baş tuta biləcəkmi?***

- Bəli, mən buna əminəm. Qərbdən tədarük olunan silahların hesabına əks-zərbələr endirilir. Rusiyanın, demək olar ki, bütün ölkə boyu raketlərdən istifadə edərək əzələ nümayiş etdirməsi, hətta hərbi əməliyyatlara dəxli olmayan Çerkası Ternopol, Nikolayev şəhərlərini, eləcə də Kremençuqda dinc insanların alış-veriş etdiyi "Amstor" ticarət mərkəzini amansızlıqla atəşə tutması məhz Ukraynanın əks-zərbələri səbəbindən Rusiya komandanlığının əsəblərini nəzarətdə saxlaya bilməməsinin göstəricisidir...

Əvvəllər təbliğat üçün mən də daxil olmaqla, məcbur olmuşuq "Ukraynanın hər şeyi var" deməyə. Halbuki, müharibənin ilk vaxtlarında elə günlər olub ki, hətta bəzi yerlərdə iki həftə bundan öncəyədək, Ukrayna ordusunun bəzi birləşmələri yalnız yüngül atıcı silahlara möhtac qalıb. Yəni artilleriya qurğuları, topları da, mərmilər də çatışmayıb. İndi, Allaha şükür, vəziyyət xeyli qaydasına düşüb. Odur ki, hazırda mən də elə düşünürəm ki, təxminən avqustun ikinci dekadası üçün genişmiqyaslı əks-hücum əməliyyatları başlana bilər.

Həmin vaxtadək silahların, texnikaların hərbi hissələrə çatdırılması, onların öyrədilməsi üçün təxminən 50 gün lazım gələcək. Bu mənada da "appendiks" kimi Ukrayna ordusunun mühasirəyə düşməsinə şərait yarada biləcək yerləri də nəzərə almaq lazımdır. Məsələn, bayaq xatırlatdığım Severodonetsk... Ruslar həmin şəhərin hələ mayın 22-də azad edildiyini desə də, bu şəhəri yalnız bir ay sonra - iyunun 25-də Ukrayna qüvvələri tamamilə tərk edib. Severodonetsk şəhərinin, demək olar ki, Mariupol kimi 90 faizi məhv edilib.

Yəni bu şəhəri nəzarətdə saxlayıb mühasirəyə düşməkdənsə, NATO sistemində olduğu kimi, yerli, birbaşa səngərdə olan səhra komandirlərinin qərarları əsasında Ukrayna ordusu geri çəkildi. Burada söhbət ondan gedir ki, canlı qüvvə itkiləri mümkün qədər azaldılsın, həm də onlar daha vacib əməliyyatlar üçün qorunub saxlanılsın.

Rusiya ordu sistemində belə bir qayda olmadığı üçün Kremldə qərarlar yalnız yuxarı komandanlıq tərəfindən verilir və nəticədə canlı qüvvə itkilərinə də heç bir əhəmiyyət verilmir...

***✍ Sultan Laçın***




# Kəlbəcərdən Ermənistana ünvanlanan mesaj

**Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İyunun 26-da Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər edib. Səfər çərçivəsində ölkə başçısı ənənəvi olaraq bir sıra açılışlar edib, tikintisi davam edən obyektlərdə görülən işlər ilə tanış olub. Məlum olduğu kimi, Göygöl rayonuna səfəri çərçivəsində Prezident Toğanalı-Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində inşa edilən iki tunelin tikintisi ilə tanış olub.**

Laçın rayonuna səfəri zamanı isə ölkə başçısı Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri, 110 kV-luq "Qorçu" elektrik yarımstansiyasında görülən işlərlə, "Həkəriçay" su anbarı layihəsi və Kəlbəcər-Laçın avtomobil yolunun tikintisi ilə bağlı görülən işlərlə tanış olub.

Kəlbəcər rayonuna səfər zamanı isə Prezident yeni tikilmiş 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının (KSES) açılışında iştirak edib, "İstisu" mineral su zavodunun, Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoyub, "Çıraq-1" Kiçik Su Elektrik Stansiyasında tikinti işlərinin gedişatı ilə tanış olub.

Prezidentin səfərinin ən diqqətçəkən məqamı isə şübhəsiz ki, Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak etməsi oldu. Prezidentin komando hərbi hissəsinin açılışında çıxışı zamanı səsləndirdiyi bir sıra məqamlar diqqət çəkib.

**■ Politoloq, professor Qabil Hüseynli hafta.az-a açıqlamasında Prezidentin son Kəlbəcər, Laçın səfərini yüksək dəyərləndirib. O, bu gün Ermənistanın Zəngəzur dəhlizinin açılması ilə bağlı yaratdığı müxtəlif bəhanələr və maneələrin fonunda "Laçın dəhlizi" məsələsi ilə bağlı gündəmə gələn müəyyən zəruri addımların əhəmiyyətini xüsusilə vurğulayıb.**

Q.Hüseynli hesab edir ki, bu səfərlər çərçivəsində Ermənistana verilən siyasi mesajlar sülhyaratma prosesində yaradılmış əngəllərin aradan qaldırılması ilə bağlıdır. Politoloq bildirir ki, Ermənistan tərəfi məğlub olsa da sözün əsl mənasında danışıqla prosesində özünü çox cığal aparır və danışıqlar prosesinin baş tutmasına əngəllər törədir. Bunu Ermənistanın təhrikçiləri, himayədarları da anlamalıdır.

> *"Prezident çox kəskin və birmənalı formada Ermənistan tərəfinə xəbərdarlıq etdi*

Q.Hüseynli Rusiyanın xarici işlər naziri S.Lavrovun belə bir vaxtda ölkəmizə səfər etməsinə də toxunub. Onun sözlərinə görə, Rusiya əvvəlki kimi, sülhyaratma prosesinə maneə olmaq fikrində deyil və prosesin öz nəzarəti altında getməsini istəyir.

"Biz əlbəttə ki, Avropa Birliyinin də bu prosesin nizamlanmasında qatqısının, moderatorluğunun olmasını istəyərdik. Amma Rusiya buna qısqanclıqla yanaşır. Bu səbəbdən də proseslərdə bir ləngimə və Ermənistanı bir növ hansısa formada qanadının altına alma hərəkətləri var. Lavrov gəldi, getdi, amma hələ ki, Ermənistan tərəfindən bir tərpəniş hiss olunmur. Ona görə də Azərbaycan Prezidenti Kəlbəcərə səfərində yenidən sülh, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və sair bu məsələlər ətrafında müəyyən mesajlar verdi. Həm də çox kəskin və birmənalı formada Ermənistan tərəfinə xəbərdarlıqlar etdi. Dedi ki, bu məsələlərdə hiyləgərliklə sülh prosesinə əngəllər yaratmağınız heç bir işə yaramayacaq, bu sizin ziyanınıza olacaq. Prezident dedi ki, sonunda biz Zəngəzur dəhlizini də açacağıq, sərhədlərin müəyyənləşdirilməsini də həyata keçirəcəyik və sülh sazişinə dair bir çox məsələləri də özümüz həll edəcəyik. Lazım gəlsə sizi sülhə məcbur edəcəyik. Bu Ermənistana yönəlmiş sərt xəbərdarlıqlar idi".

Politoloq hesab edir ki, qalib bir dövlət, müharibədə zəfər çalan tərəf kimi Azərbaycanın öz şərtlərini diqtə etmək hüququ var.

"Bu diqtə beynəlxalq hüquq normalarına əsaslanır, Ermənistanın həyati hüquqalarının tapdalanmasına imkan vermir. Prezident bəyan edir ki, biz sülhyaratma prosesini Azərbaycanın ərazi bütövlüyü çərçivəsində aparılmasını istəyirik. Hələ ki, Ermənistanı "ruhlandıran" güclər var və qarışıqlıq yaratmağa çalışırlar. Hələ ki, biz bir qədər suların durulmasını gözləyirik. Azərbacan Ermənistanın hərəkətlərində bu cür təxribat xarakterli ləngimələrin davam edəcəyini görəcəksə, əlində Ermənistanı sülhə məcbur etmək üçün vasitələr var və bu vasitələrlə onu sülhə məcbur edəcəyik".

Politoloq Q.Hüseynli Prezidentin Ermənistana verdiyi mesajlar içərisində Zəngəzur dəhlizi açılmacaqsa Laçın dəhlizi ilə bağlı məsələyə yenidən baxılacağı, Qərbi Azərbaycan məsələsinin gündəmə gətirilməsinin xüsusi əhəmiyyətə malik olduğunu deyib.

"Prezident bildirib ki, Zəngəzur dəhlizi olmayacaqsa, Laçın dəhlizi də olmayacaq. Zəngəzur dəhlizinin statusu necə olacaqsa, Laçın dəhlizinin də statusu elə olacaq. Azərbaycan yeni çəkilən yolun üzərində nəzarəti özündə saxlamaq istəyir. Ümumiyyətlə, öz ərazisində kənardan hər hansı bir təxribatçı qüvvələrin yerləşdirilməsinə imkan verməyəcəyini bəyan edir.

Onsuz da yeni tikilən Laçın dəhlizi başa çatdıqdan sonra bölgədə vəziyyət köklü surətdə dəyişəcəkdir. Əgər Ermənistan Zəngəzur yolu istiqamətində dəmir yolu və şose yolun çəkilişinə maneək törətməkdə davam edəcəksə, özü bəlkə də hər şeyi itirəcəkdir". Q.Hüseynli bəyan edib ki, Azərbaycan prezidenti "Qərbi Azərbaycan" sözünü işlətməklə bir daha tarixə diqqət yetirir və bildirir ki, bugünkü Ermənistan dövlətinin yarandığı yer Azərbaycanınqərb hissəsi, Azərbaycan türklərinin yaşadığı yerlər olub:

"O, bəyan edir ki, biz indi formalaşmış reallıqla barışmaq məcburiyyətində qalmışıq. Amma Ermənistan yenə də, Azərbaycann ərazi bütövlüyünə qəsd etmək fikrinə düşərsə, Azərbaycana qarşı hər hansı təxribatçı hərəkətlərə yol verərsə, o zaman Qərbi Azərbaycanın hissələri, Yerevan da daxil olmaqla bütün iddialarımızı gündəmə gətirə bilərik. Söhbət Zəngəzurdan - Dərələyəzdən, Göyçə mahalından, Vedibasardan və digər ərazilərimizdın gedir. Prezident artıq bir neçə dəfə bu məsələləri gündəmə gətirməklə ermənilərə başa almağa çalışır ki,siz bu yerlərə gəlməsiz, sizi bura Azərbaycanın iki yerə bölünməsi nəticəsində işğalçı qüvvələr gətirdilər. Lazım gələrsə həmin torpaqlar haqqında da tarixi iddialarımızı qaldıra bilərik. Bunu bizdən həmin torpaqlardan deportə edilmiş insanlar da tələb edir. Ona görə də ağlınızı başınıza yığın, bölgədə sülhün əminəmanlığın yaranması üçün konstruktiv davranın. Əks halda, Ermənistanın ziyanına olan proseslər baş verə bilər".

> *Bakı öz ordusu ilə İrəvan və onun arxasında olan qüvvələrə istənilən cavabı verə bilər*

**■ Politoloq Zaur Məmmədov hafta.az-a açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin Silahlı Qüvvələrin yaranmasının ildönümü günündə məhz Laçın və Kəlbəcərə səfər etməsi və orada hərbçilər qarısında çıxış edib bir çox məsələləri vurğulaması Ordumuzun gələcəkdəki hədəfləri istiqamətində atıla biləcək addımları önə çəkməsi əlbəttə ki, Azərbaycan dövlətçiliyi üçün vacib səhifələrdən biridir.**

Politoloq, artıq Ermənistan baş naziri Nikol Paşinyanın İrəvandakı çıxışı zamanı Azərbaycanın yenidən müharibəyə hazırlaşması ilə bağlı fikirlərini də təsadüfi saymır:

"Əslində, Azərbaycan müharibəyə hazırlaşmır, Azərbaycan öz ordusunu gücləndirərək, dövlət, sərhəd təhlükəsizliyini, təmin edir. Əlbəttə ki, əgər bizə qarşı ikilistandartlar davam edəcəksə, əgər Ermənistan tərəfində verilən sözlər və öhtəlikər yerinə yetirilməyəcəksə o zaman Bakı öz ordusu ilə İrəvan və onun arxasında olan qüvvələrə istənilən cavabı verə bilər".

Z.Məmmədov hesab edir ki, Prezidentin Kəlbəcərdə çıxışı zamanı qeyd etdiyi nüanslar onun göstəricisidir ki, Ermənistan rəhbərliyi və müxalifəti, radikal qüvvələr ağıllarını başlarına yığmalıdırlar. Politoloq Prezidentin çıxışına istinadla qeyd edib ki, 2020-ci il 44 günlük müharibəyə qədər də onlara dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq Ermənistan özünü qeyri-adekvat aparırdı. "Bu gün də görürük ki, hansısa məsələlərdə özünü qeyri-adekvat aparmaqla vaxt almaqla məşğuldur. Ermənistan Minsk Qrupunun həmsədrliyini ortaya atır, Qarabağın dağlıq hissəsindəki məsələni öz aləmində gələcəyə saxlamaq istəyir. Amma bütün bunların perspektivi yoxdur. Çünki Ermənistan olmadan da burdakı məsələlər öz həllini tapacaqdır. Yaxşı olardı ki, bu yeni mərhələdə hər kəs Cənubi Qafqaza öz töhfəsini versin".

***✍ Tahirə Qafarlı***

# Azad iqtisadiyyatın Azərbaycan modeli

## Layihə

***Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bazar münasibətlərinə əsaslanan liberal iqtisadi sistemin formalaşması, vətəndaşların iqtisadi azadlığına şərait yaradılması, zəngin təbii sərvətlərdən səmərəli istifadə, investisiya cəlbediciliyinin yüksəldilməsi yolunda əmin addımlarla irəliləyir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin, reallaşdırılan layihələrin nəticəsi olaraq ölkə iqtisadiyyatı yeni keyfiyyət parametrləri ilə özünü təsdiqləyib.***



Bu parametrlər keçid dövrünü uğurla başa vurmuş ölkəmizdə mülkiyyətin çoxnövlülüyünün təmin olunması, bazar iqtisadiyyatı üçün qanunvericilik bazasının yaradılması, aqrar islahatların həyata keçirilməsi, sahibkarlar institutunun formalaşması, özəlləşdirmə istiqamətində hüquqi bazanın yaradılması, müəssisələrin təsərrüfat fəaliyyətində dövlətin rolunun məhdudlaşdırılması, daxili və xarici iqtisadi fəaliyyətin liberallaşdırılmasında, qiymətlərin bazar tərəfindən müəyyənləşdirilməsi, ümumilikdə, dövlətin iqtisadiyyata müdaxiləsinin minimuma endirilməsi və bu kimi digər məsələlərdə özünü göstərir.

Belə ki, ötən illər ərzində sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması məqsədilə Azərbaycanda sahibkarlığın hüquqi bazası dünya təcrübəsinə uyğun olaraq təkmilləşdirilib. Sahibkarlığın inkişafının zəruri hüquqi mühitinin formalaşdırılması istiqamətində qəbul edilmiş qanunlar və digər qanunvericilik aktları sahibkarlığın bir sistem halında hüquqi bazasını təşkil edir. Sahibkarlığın inkişafı sahəsində qəbul olunmuş dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu olub, kiçik və orta sahibkarlığın inkişafı üzrə dövlət tədbirlərini Azərbaycan dövlətinin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevirib. Bu dövlət proqramları çərçivəsində iqtisadiyyatın və sahibkarlığın tənzimlənməsi sahəsində mühüm tədbirlər həyata keçirilib. Sahibkarlara dövlət maliyyə köməyi sistemi formalaşdırılıb. Sahibkarlar üçün vergi yükünün azaldılması istiqamətində dövlət səviyyəsində müəyyən addımlar atılıb. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə sahibkarlığın inkişafı istiqamətində strateji xətt uğurla davam etdirilir. Ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə ölkə başçısı tərəfindən 2014-cü ildə "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalanıb. 2004-cü ildən bu günə qədər sahibkarlara 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilib. Sosial-iqtisadi inkişafda keyfiyyətcə yeni mərhələ kimi dəyərləndirilən son 16 il həm də sahibkarlar ordusunun milli iqtisadiyyatın aparıcı təbəqəsi kimi önə çıxması ilə səciyyəvidir. Regional dövlət proqramlarında biznes mühitinin yaxşılaşdırılması ilə bağlı kompleks tədbirlər əksini tapıb. Bu da bölgələrin tərəqqisi prosesində özəl sektorun imkanlarını səfərbər etmək, sosial xarakterli məsələlərin həllində sahibkarların fəal iştirakına nail olmaq istəyindən irəli gəlib.

Bu gün görülən tədbirlərin nəticəsi olaraq bazar iqtisadiyyatının əsas prinsiplərindən olan azad biznes və özəl sektora dövlət dəstəyi faktorları ümumi inkişafın göstəricisinə çevrilir. Dövlətin təmin etdiyi azad bazar institutu ölkədə sahibkarlığın inkişafını stimullaşdırır, ona geniş meydan verir. Eyni zamanda, ölkədəki xarici sərmayəçilərə yaradılan mühitin şəffaflıq dərəcəsi iqtisadiyyatın inkişafının əsas göstəricilərindən biri hesab olunur. Bu mənada bazar iqtisadiyyatını əsas istiqamət seçən Azərbaycan hökumətinin biznes mühiti ilə bağlı həyata keçirdiyi tədbirlər böyük əhəmiyyət daşıyır.

*"Bazar iqtisadiyyatının liberal modelinin əsas əlaməti, qeyd etdiyimiz kimi, dövlətin iqtisadiyyata müdaxiləsini minimuma endirməkdir*



**Akif Nəsirli,**
iqtisadçı-ekspert

Həmin tədbirlərin nəticəsidir ki, əksər dünya ölkələrində pandemiya dövründə ciddi iqtisadi geriləmələr müşahidə olunsa da, Azərbaycan iqtisadiyyatı pandemiyadan ən az zərər çəkən ölkələr sırasındadır. Və post-pandemiya dövründə iqtisadi fəallığın daha qısa müddətdə bərpa olunması bunu bir daha sübut edir. Məsələn, Azərbaycan iqtisadiyyatı bu ilin birinci rübünü müsbət notda başa vurub. Belə ki, ÜDM 6,8 faiz artıb, qeyri-neft sektorunda 10,3 faiz, qeyri-neft sənayesində isə 18,1 faizlik artım qeydə alınıb. Burada əsas diqqətçəkən məqam qeyri-neft sektorunda 18,1 faiz həcmində artımın əldə olunmasıdır. Deməli, qeyri-neft sektorunun inkişafı istiqamətində aparılan kurs öz bəhrəsini verməkdədir. Ölkədə yaradılan sənaye parkları, sahibkarlara verilən güzəştlər və subsidiyalar, investisiya təşviqi sənədləri və digər tədbirlər ölkədə biznesin inkişafına təkan verib. Müşahidələr onu göstərir ki, ildən-ilə sənaye parklarının iqtisadiyyatdakı rolu artır. Sənaye parklarına investisiyalar artıq qeyri-neft sektoruna qoyulan investisiyaların 23,8 faizinə çatıb. Bütün dövr ərzində onların rezidentləri 6,3 milyard manatlıq məhsul istehsal edib, 2 milyard manatlıq ixracat həyata keçiriblər. İstehsalın və ixracın artım templəri sürətlə yüksəlir. Ümumilikdə isə ötən il sənaye parklarından məhsul ixracı 138 faiz, istehsal isə 76 faiz artıb. Qeyd olunmalıdır ki, bu tendensiya təkcə sənaye parklarında yaşanmır, digər sənaye məhsullarının da ixracı artır.

Bundan başqa, ötən il Azərbaycanda ÜDM artımı 3,4 faiz səviyyəsində proqnozlaşdırılırdı və yekunda 5,6 faiz təşkil etdi. Bu ilin birinci rübündə dövlət büdcəsinin gəlirləri proqnozlaşdırılandan 6,3 faiz (418 milyon manat) çox olub və 7 milyard manatı ötüb. Dövlət Vergi Xidməti üzrə daxilolmalar proqnozlaşdırılandan 23,8 faiz, Dövlət Gömrük Komitəsi üzrə isə 23,7 faiz artıq olub. Yəni, faktiki iqtisadi artım göstəriciləri proqnozları qabaqlayır və bu da təbii ki, bir çox amillərlə bağlıdır. Məsələn, iqtisadiyyatın "kölgədən çıxarılması", əlverişli biznes və investisiya mühiti, sahibkarlar üçün əlavə güzəştlərin yaradılması və s. vergi və gömrük daxilolmalarının artmasına, investisiyaların cəlb edilməsinə şərait yaradır.

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən iqtisadçı-ekspert Akif Nəsirli bildirib ki, azad bazar iqtisadiyyatının əsas şərtlərindən birincisi, xüsusi mülkiyyətin iqtisadiyyatda payının üstünlük təşkil etməsidir:** "Bu üstün mövqe məsuliyyəti fərdiləşdirir və daha səmərəli səviyyəyə qaldırır. Dövlət və ya ictimai mülkiyyətə nisbətən insanlar xüsusi mülkiyyətə daha məsuliyyətlə yanaşır. Çünki vətəndaş xüsusi mülkiyyəti tam olaraq özününkü sayır, onun bütün məsuliyyətini öz üzərində hiss edir. Bu səbəbdən də insanlar xüsusi mülkiyyətin inkişafında daha ciddi cəhdlə çalışır, onun genişləndirilməsi üçün bütün bacarığını və potensialını ortaya qoyur. Dövlət mülkiyyəti formasında daha çox məsuliyyət ümumi anlayış olan dövlətin üzərinə düşür və bu mülkiyyətin genişləndirilməsi imkanları yalnız ona məxsusdursa, xüsusi mülkiyyətin üstün olduğu iqtisadiyyatda daha böyük cəhdlər göstərən minlərlə sahibkar mövcud olur. Yəni inkişaf bir mərkəzdən deyil, çoxsaylı mərkəzdən qaynaqlanır, hər bir sahibkar bir inkişaf mərkəzinə çevrilir. Azad, liberal bazar iqtisadiyyatını populyarlaşdıran əsas əlamət də elə budur. Hər bir sahibkar düşüncəsinə görə özünə işləyir, biznesi nə qədər çiçəklənsə mənfəəti bir o qədər artacaq. Digər tərəfdən isə sahibkarın çiçəklənən biznesi onun özündən daha çox ümumi iqtisadiyyata töhfə verir. Təbii ki, bazar iqtisadiyyatı mexanizminin özəl mülkiyyət əsasında işini qura bilməsi üçün qanunvericilik sahibkarlığı müəyyən dövlət qurumları tərəfindən ola biləcək təsirlərdən qorumalıdır. Yəni bazar iqtisadiyyatı tətbiq edilirsə, qanunvericilik də ona uyğunlaşdırılmalıdır. Qanunlarla sahibkarın hüquqları təsbit edilməli və onun işlək mexanizm halına gəlməsi üçün digər hüquqi normativ aktlar da qəbul edilməlidir.

Həmin hüquqi-normativ aktlar sahibkarı dövlət orqanlarından güvənli şəkildə qorumaq imkanına malik olmalıdır. Bazar iqtisadiyyatı şəraitində dövlət tənzimlənməsi vacib amillərdən biridir. Hətta, dövlət tənzimlənməsini nəzərə alaraq belə, bir deyim də yaranıb - ideal azad bazar iqtisadiyyatı modeli həyatda mövcud deyil. Lakin iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi nə qədər məhdud xarakter daşısa, iqtisadiyyat daha böyük sıçrayışla inkişaf edə bilər. Daha yaxşı olar ki, "görünməz əl" vasitəsilə dövlət tənzimlənməsi əsasən makroiqtisadi prosesləri əhatə etsin".

Onun sözlərinə görə, bazar iqtisadiyyatı şəraitində özəl sektor o qədər yüksək templə inkişaf etməlidir ki, Ümum Daxili Məhsulda dövlət büdcəsinin payı azalmalıdır: "Yəni yeni yaradılan dəyərin daha az hissəsi büdcə vasitəsilə yenidən bölüşdürülməlidir. Bu əlamət də dövlətin iqtisadiyyata müdaxiləsini məhdudlaşdıran elementlərdən biri kimi çıxış edir. Ona görə də beynəlxalq indiqatorlardan birini də, məhz Ümum Daxili Məhsulda (ÜDM) dövlət büdcəsinin xüsusi çəkisi təşkil edir. ÜDM-də dövlət büdcəsinin payı nə qədər azdırsa, iqtisadiyyat daha səmərəli mexanizmə malikdir. Təəssüflər olsun ki, Azərbaycanda bu göstərici hələ də 40 faizdən çoxdur. Bazar iqtisadiyyatının liberal modelinin əsas əlaməti, qeyd etdiyimiz kimi, dövlətin iqtisadiyyata müdaxiləsini minimuma endirməkdir. Belə bir şəraitdə azad sahibkarlığa, tələb-təklif əsasında formalaşan azad qiymətlərə və azad rəqabətə geniş meydan açılır. Təbii ki, bu mənada Azərbaycanda son illər həyata keçirilməyə başlanılan islahatların genişləndirilməsinə və daha da dərinləşdirilməsinə ehtiyac var".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

# Azərbaycan-Özbəkistan sənədləri ikitərəfli əlaqələr baxımından mühüm rol oynayacaq

**Son dövrlər Azərbaycan ilə Mərkəzi Asiya ölkələri, həmçinin Özbəkistan arasında münasibətlərdə də canlanma müşahidə olunmaqdadır. Qeyd edək ki, hələ Sovet İttifaqı dönəmində də hər iki xalq arasında mədəni əlaqələr inkişaf edib. Ötən əsrin 30-cu illərində kütləvi repressiyalar zamanı on minlərlə azərbaycanlı Özbəkistanda sığınacaq tapıb. 1966-cı ilin aprelində dağıdıcı zəlzələdən sonra Daşkəndin bərpasında azərbaycanlılar da yaxından iştirak ediblər.**

Bu gün 68 minə yaxın azərbaycanlı Özbəkistan cəmiyyətinin sosial, ictimai, iqtisadi və digər sahələrində fəal iştirak edir. İki ölkə arasında diplomatik əlaqələr 1995-cü ilin oktyabr ayının 2-də qurulmuşdur. 1996-cı ilin ortalarında Azərbaycan Respublikasının Özbəkistan Respublikasında, 1998-ci ilin may ayında Özbəkistan Respublikasının Azərbaycan Respublikasında səfirlikləri fəaliyyətə başlayıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursu ölkəmizin dünya birliyindəki mövqeyini getdikcə möhkəmləndirir. Məhz bu uğurlu siyasətin nəticəsidir ki, son illər Azərbaycanla strateji əməkdaşlıq etmək istəyən dövlətlərin sayı artır. Xüsusilə də, 44 günlük müharibədə dövlət başçımızın xarici səfərləri zamanı qalib ölkənin Prezidenti kimi qarşılayırlar. Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri zamanı da bir daha bunun şahidi olduq. Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 21-22-də Özbəkistana tarixi dövlət səfəri iki qardaş ölkə arasında münasibətlərin inkişafı üçün çox əhəmiyyətlidir və gələcəkdə böyük nəticələrin olacağını təsdiqləyir.



**MƏŞHUR MƏMMƏDOV,**
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü

Azərbaycan Prezidenti İlham Əliyev görüşü zamanı bu münasibətlərin ərazi bütölüyümüzü bərpa edərkən Özbəkistan xalqının dəstəyini xüsusi qeyd edərək bildirdi ki, bu iki dost, qardaşlıq münasibətlərin irəli gəlir: "Bu gün mən biz ərazi bütövlüyümüzü bərpa edərkən özbək xalqının və Özbəkistan Prezidentinin Azərbaycana göstərdiyi dəstəyi xüsusi qeyd etmək istərdim. Azərbaycanlılar bunu çox yaxşı bilir, qardaşlıq münasibətini xatırlayır və yüksək qiymətləndirirlər. Özbəkistan Prezidentinin sözləri, bizim Qələbəmiz münasibətilə təbrikləri – bütün bunlar, təbii ki, Azərbaycanda dost sözü, qardaş sözü kimi qəbul edilir. Biz bunu yüksək qiymətləndiririk və öz tərəfimizdən biz də bütün məsələlərdə Özbəkistanın, özbək xalqının yanındayıq".

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev də vurğulayıb ki, Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır: "Ölkələrimizi ortaq din, mənəvi dəyərlər, oxşar ənənələr, dil və mədəniyyət birləşdirir ki, bu barədə bu gün biz məhdud tərkibdə keçirilən görüşdə çox ətraflı danışdıq. Biz Azərbaycanın sanballı uğurlarına Özbəkistanda həmişə ürəkdən sevinirik. Bu gün Sizin əldə etdiyiniz nailiyyətlər bütün dünyada tanınır".

Həmçinin, səfər zamanı ən mühüm və tarixi hadisələrdən biri də Daşkənddə xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan meydanın açılış mərasiminin keçirilməsi oldu. Prezident İlham Əliyev iyunun 21-də Daşkənddə Heydər Əliyev Meydanının açılışında çıxış edərkən ulu öndərin Azərbaycan-Özbəkistan münasibətlərinin dərinləşməsindəki fəaliyyətini yüksək dəyərləndirərək, deyib: "Mən atamın işinin davamçısı kimi, Azərbaycan Prezidenti kimi öz fəaliyyətimdə bizim ikitərəfli münasibətlərə daim xüsusi diqqət ayırıram. Bugünkü dövlət səfəri bunun əyani təsdiqidir. Səfər pandemiya ilə əlaqədar təxirə salınmışdı. Həmçinin onu diqqətlə hazırlamaq lazım idi ki, qardaşım Şavkat Miromonoviçin dediyi kimi, sıçrayış edək. Fikrimcə, bu, həqiqətən sıçrayış xarakterli səfərdir. Çünki müzakirə olunan mövzuların həm mahiyyətinə, həm formasına, həm məzmununa, bizim gəldiyimiz qərarlara əsasən bu səfər və razılaşmalar münasibətlərimizin gələcək inkişafı üçün əsas olacaq".

Həmçinin, Azərbaycan Prezidentinin Özbəkistana səfəri çərçivəsində 21 iyun 2022-ci il tarixində 20-yə yaxın sənədin, o cümlədən strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamənin imzalanması ilə münasibətlərdə keyfiyyətcə yeni mərhələnin əsası qoyuldu. Dövlətimizin başçısının qeyd etdiyi kimi: "Siyasi Bəyannamə mahiyyət etibarilə bizim münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə çatdırır. Təbii ki, qarşılıqlı dəstək də olacaq - həm mövcud beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkələrimizin və xalqlarımızın təhlükəsizliyi ilə bağlı bütün başqa məsələlər daimi diqqət tələb edir. Bu da olacaq. Ona görə ki, bundan ötrü siyasi iradə var".

Bir sözlə, Azərbaycan Prezident İlham Əliyevin Özbəkistana səfəri səfər çərçivəsində ölkələr arasında müxtəlif sahələr üzrə saziş və sənədlərin imzalanması iki ölkə arasındakı dostluq və həmrəylik münasibətlərinin dünyaya nümayişi olmaqla yanaşı, ikitərəfli əlaqələrin daha da inkişafı baxımından mühüm rol oynayacaq.

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə əməliyyatları barədə həftəlik məlumat açıqlayıb. İyunun 20-dən 25-dək Tərtər, Ağdam, Xocavənd, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda 25 piyada əleyhinə mina, 31 tank əleyhinə mina və 147 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb.

---

■ Moskva Novorossiysk limanı vasitəsilə on milyonlarla ton taxıl ixrac etməyə hazırdır, lakin bunun üçün Qərbin sanksiyaları ləğv etməsi lazımdır. Bunu Rusiya Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə ikinci departamentinin direktoru Aleksey Polişuk RİA-ya müsahibəsində bildirib.

---

■ Rusiyanın Yakutiya Respublikasında "Polyarnıe avialinii" şirkətinə məxsus Mi-8 helikopteri sərt eniş edib. Helikopterdə olan üç heyət üzvü xəsarət alıb. Hadisə yerinə xilasedicilər cəlb edilib. Qəzanın səbəbləri ilə bağlı araşdırma aparılır.

---




■ "NATO Ukrayna Prezidenti Volodimir Zelenskiyə bildirib ki, münaqişə yalnız hərbi yolla həll edilməlidir və alyans bunun üçün Kiyevə kömək etməyə davam edəcək".

Bunu Belçikanın Baş naziri Aleksandr De Kroo NATO sammitinə gələrkən deyib. "Bizim artıq Zelenski ilə danışmaq imkanımız olub. Müharibəni yalnızca döyüş meydanında qazanmağın mümkün olduğunu vurğulayaraq onunla danışmağı davam etdirmək vacibdir", - deyə De Kroo söyləyib.

---

■ NATO-nun yeni konsepsiyası hazırlanarkən Rusiya ilə pisləşən münasibətlər nəzərə alınıb. Bu barədə NATO-nun bu gün keçirilən Madrid Sammitində qəbul olunan bəyannamədə bildirilir. "Müttəfiqlərimizin təhlükəsizliyinə ən böyük və birbaşa təhdid Rusiyadır. Sərhəd təhlükəsizliyimizi gücləndirəcəyik", - deyə bəyannamədə qeyd olunub.

---

■ Sankt-Peterburqun Qanunvericilik Məclisi metro vaqonlarında musiqi alətlərində ifa etməyə və metropoliten rəhbərliyi tərəfindən icazəsiz ianələrin yığılmasına, habelə metroya açıq-saçıq halda, yaxud çirkli geyimdə daxil olmağa görə cərimələrin tətbiqini nəzərdə tutan qanun qəbul edib.

---



■ Ukrayna Silahlı Qüvvələri yayın sonuna qədər Rusiyanın hücumunu tamamilə dayandıra bilər. Lakin bu müddət ərzində ərazilərin işğaldan azad edilməsi inandırıcı deyil. Bunu Ukrayna daxili işlər nazirinin müşaviri Viktor Andrusiv deyib.

---

■ Bakıdakı "Fairmont" hotelində insident baş verib. Polisə müraciət edən 1998-ci il təvəllüdlü A.Əliyeva tanış olduğu ərəb turistlə mehmanxanada olarkən onun hücumuna məruz qaldığını və döyüldüyünü bildirib. İlkin araşdırmalardan sonra 24 yaşlı qızı döyən şəxsin Səudiyyə Ərəbistanı vətəndaşı, 1997-ci il təvəllüdlü Rahan Yaser Alajain olması müəyyən edilib. Məlum olub ki, o, iyunun 18-dən Bakıda turist kimi qalır.

## Müsahib

***44 günlük müharibədə qazandığımız Zəfər istər regionda, istərsə də ölkənin daxili-ictimai-siyasi-mədəni həyatında yeni yanaşmalar, yeni reallıqları ortaya çıxarıb. Dəyişən dünya düzənində Azərbaycanın bütün sferalarında məsələlərə yanaşması fərqlidir. Belə bir şəraitdə, Azərbaycanın siyasi müstəvisi, siyasi partiyaları bu reallığa nə dərəcədə adekvat cavab verə bilir? Yenilənən torpaqlarımız, yeni münasibətlərə şahidlik edirmi? Bu yaxınlarda siyasi partiyaların Zəngilana səfəri müstəvisində bir çox mətləblərə aydınlıq gətirildi. "Həftə içi"nə müsahibə verən Azərbaycan Sosial-Demokrat Partiyasının sədri Araz Əlizadə maraqlı fikirlər söyləyib.***

# "İqtidar müxalifətə normal münasibət bəsləyir..."

***- Araz müəlllim, bu günlərdə siyasi partiya sədrlərinin Zəngilana 4-cü səfəri baş tutdu...***

- Bu, Prezident Admnistrasiyasının siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin işğaldan azad olunmuş ərazilərə təşkil etdiyi 4 cü səfərdir. Çox dəyərli təşəbbüsdür.

Bizim partiya həmişə milli barışıq tərəfdarı olub. İstəmişik ki, Azərbaycan xalqı bir-birinə dost, normal münasibət bəsləsin. Əfsuslar olsun, o zaman başqa müxalif qüvvə olan Xalq Cəbhəsi bunu qəbul etmirdi. Onlar deyirdilər ki, kommunistlərlə millli barışıq ola bilməz. Zərdüşt Əlizadə 1991-ci ildə prezidentliyə namizəd olanda təklif etmişdi koalisiya hökuməti qurulsun. Xalq Cəbhəsində o zaman danışıqlarda iştirak edən şəxs Pənah Hüseyn idi və o "Yox!" demişdi. Səbəbini soruşanda, bildirmişdi ki, əgər kommunistlərlə koalision hökumətin quruluşuna getsək, özəlləşmə başlayanda kənarda qalacağıq. Pənah Hüseyn deyirdi ki, özəlləşmə başlayanda "şir payı" götürməliyik. Düzdür, hakimiyyəti birillik götürdülər, sonra əllərindən bir iş gəlmədi deyə, təhvil verdilər. O zaman milli barışıq baş tutmadı.



**Araz Əlizadə,**
Azərbaycan Sosial-Demokrat Partiyasının sədri

İndi Prezident Admnistrasiyasının siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə iş şöbəsi həmin bu millli barışığı bir növ həyata keçirir. Partiyalar var idi ki, illərlə qeydiyyatdan keçmirdilər, onların hamısı qeydiyyatdan keçirildi. Partiyalara qərargah veriblər və iş üçün şərait yaradıblar. Bu gün də azad olunmuş torpaqlara səfərlərin təşkili partiya sədrlərini bir-birinə yaxınaşdırır. Məsələn, partiya sədrləri var ki, bir-birlərini illərlə görmürdülər. İndi bir avtobusda gedirik, "salamməleyk" edirik, danışırıq, gülürük və sair. Yəni bunun özü milli barışıq yolunda böyük bir addmdır.

Bu səfər zamanı Cəbrayıl rayonu ərazisində bizə ANAMA-nın fəaliyyətindən məlumat verdilər. Orada minaların partlayışını həyata keçirdilər. Həkəri çayının Zəngilandan keçən hissəsində çaya balıq buraxdıq. Sonra Ağalı kəndinə getdik. Orada aparılan işlərlə tanış olduq. belə qeydlər edildi ki, gələcəkdə hər yerdə belə kəndlər tikiləcək və Qarabağın keçmiş köçkünləri, əhali o yerlərə köçürüləcək. Sonra Bəsitçay qoruğuna getdik, o yerlərdə bir daha erməni vandalizminin şahidi olduq. Ona görə də hesab edirəm, bu çox səmərəli, lazımlı bir səfər idi.

***- Qeyd etdiniz ki, o zamanlar bəzi müxalif qüvvələr bir araya gəlmək istəmirdilər və müqayisə aparmaqla bu gün hökumətin milli birliyin yaradılması ilə bağlı atdığı addımları önə çəkdiniz. Bəs, o zaman bir araya gəlməyən AXCP, heç olmasa, bu gün sizinlə bir araya gəlirmi, bu səfərdə sizinlə birlikdə oldularmı?***

- AXCP və Müsavat belə səfərlərə gəlmir. Onlar "buğda yeyib cənnətdən çıxıblar". Onlar heç Qarabağ müharibəsini dəstəkləmək üçün 50 partiyanın imzaladığı sənədə də imza atmadılar. Düzdür, qələbədən sonra Prezidenti ayrıca təbrik elədilər. Onlar Mütəllibovun vaxtında olduğu kimi, "nə qədər pis olsa, bir o qədər yaxşıdır" fikri ilə yaşayırlar.

***- Müsavat-AXCP səfərə dəvət olunmuşdumu?***

- Hamı səfərə dəvət olunmuşdu. Amma bu prosesə qoşulmurlar və hətta o səfərə gedən müxalifəti öz aləmlərində guya alçaltmaq üçün "avtobus müxalifəti" adlandırırlar. "Avtobus müxalifəti" xarici ölkələrdən dəstək alan bu müxalifətdən daha yüksəkdir.

***- Hesab edirsiniz ki, həmin müxalifət xarici ölkələrdən dəstək alır?***

- Bəli, onlar o dəstəyi itirməmək üçün milli barışıq hərəkatına qoşulmurlar.

***- Araz müəllim, Zəngilan səfərini, həm də iqtidar-müxalifət dialoqunda bir mühüm mərhələ hesab etmək olar. Bu səfər iqtidarla münasibətləri nə dərəcədə istiləşdirdi?***

- İqtidar müxalifətə normal münasibətlər bəsləyir. Prezident Admnistrasiyasının məlum şöbəsinin işçiləri ilə çox isti münasibət var. Ona gərə də hesab edirəm ki, bu, gələcək əməkdaşlığın təzahürləridir.

***- Siz özünüz Sosial-Demokrat Partiyası olaraq hansı partiyalarla əməkdaşlıq edirsiniz, ümumən partiyaların bir-birinə münasibəti necədir?***

- Partiya sədrləri qarşılaşanda bir-biri ilə salamlaşırlar, söhbətləşirlər. Əməkdaşlıq əsasən bu səviyyədədir. Başqa heç nə...

***- Adlarını çəkdiyiniz həmin partiyalar qeyd edirlər ki, iqtidar elə bir siyasət aparıb ki, müxalifət əl-qol tərpədə bilmir...***

- Müxalifətə heç kəs mane olmur, əksinə, işləməyə şərait yaradırlar. İş ondadır ki, bir çox müxalifətin dediklərini iqtidar həyata keçirdir. Müxalifət deyirdi ki, "Qarabağ. İş. Çörək!" Artıq iqtidar Qarabağ problemini həll etdi, iş yerləri açılır və maaşlar artır. Məsələn, mən deputat olanda iki dəfə məsələ qaldırmışdım ki, əlillərə 52 manat müavinət azdır. Cənab Prezident müavinətləri artırdı. Yəni iqtidar müxalifətin əlindən "kozırları" vurub-çıxarır. Müxalifətin iqtidarı tənqid etməyi ilə bir məsələ qalmır. Ona görə də müxalifət özü yol axtarsın ki, nə ilə insanları özünə cəlb eləsin.

***- Siyasi partiyalar təkcə problemləri həl etmək üçün deyil, həm də hakimiyyətə gəlmək üçün də mübarizə apardıqlarını deyirlər...***

- Biz xalqın sosial-iqtisadi problemlərinin həllinə çalışırıq, hakimiyyətə gəlməyə yox. Biz 1991-ci ildə prezident seçkilərində iştirak edəndə deyirdik ki, əgər prezident sosial-demokrat olarsa, bu o demək deyil ki, təkcə sosial-demokratlar hakimiyyətə gələcək. Bütün peşəkarlar hakimiyyətə gələcəklər.

***- Siyasi partiyaların ictimai şuralarda iştirakına necə baxırsınız? Eyni zamanda qeyd olunur ki, müxalifətin nümayəndələri yüksək vəzifələrdə olsunlar...***

- İnsanlar qabiliyyətlərinə görə vəzifələrə təyin olunmalıdır, siyasi mənsubiyyətlərinə görə yox. Müxalifət elə kadr hazırlasın ki, iqtidar bunu görsün və onu dəvət eləsin. İctimai şuralara gəlincə, onların mənim üçün heç bir əhəmiyyəti yoxdur. İctimai şuralara girənlər də müəyyən məqsədlər güdürlər və o məqsədlər naminə də orda işlər gedir. Onlar da hakimiyyətə yaxın olmaq istəyirlər, hakimiyyətdən pay umurlar və sair. İndi təsəvvür edin ki, partiya sədrləri də gəlib orda iştirak edərsə nəyə nail olacaqlar...

***- Zəngilandan şimalda yerləşən Laçın dəhlizi, Zəngəzur dəhlizinin açılması, qapadılması məsələsi mübahisə yaradır. Ermənistan tərəfindən belə narahatlıq ifadə olunur ki, Azərbaycan yeni müharibəyə hazırlaşır və sair.***

- Azərbaycan müharibəyə hazırlaşmır, Azərbaycan müharibəyə hazırdır. Biz 30 illik işğal dövründə güclü ordu yaratdıq. Sağ olsun Prezident, Ali Baş Komandan. Bu onun misilsiz xidmətdir. Ona görə də Azərbaycan müharibəyə həmişə hazırdır. Paşinyanın oyunu var. Hər dəfə ona sülh müqaviləsi bağlamaq üçün təzyiq edəndə, o öz müxalifətini özünə qarşı aktivləşdirir. Ondan sonra deyir ki, görürsünüz, müxalifət məni qoymur. Buna İranda deyirlər "zərgər davası": iki zərgər dost xam müştəri görəndə dava salır. O müştəri də mal alanda deyir, gedim yoxlayım. Paşinyan "zərgər davası" salır. Ermənistanın müxalifəti də, iqtidarı da eynidir. Eyni yerdən də maliyyələşir: Rusiyadan və Qərbdən. Ona görə də ermənilər arasında konfliktin olcağına inanmaq düzgün deyil. Onların hamısı "böyük ermənistan" xülyası ilə doğulublar. Anaları onlara süd vedəndə bunu onların qulağına oxuyub və onunla da yaşayırlar. Bu, xəstə millətdir. Onların abrını bir az SSRİ örtmüşdü, o da dağıldı getdi.

> *Azərbaycan müharibəyə hazırlaşmır, Azərbaycan müharibəyə hazırdır*

> *Rusiya-Ukrayna müharibəsinin nəticəsi artıq məlumdur; Rusiya qalib gəlib*

> *Azərbaycan tələb etməlidir ki, ruslar separatçı Arutunyanı həbs edib bizə təhvil versin*

***- Rusiyanın rolu nə ola bilər? Ermənistan Rusiyanın forpostudur və öhdəlikləri yerinə yetirməsi üçün Rusiyanın təsiri ola bilərmi, yaxud niyə yoxdur?***

- Rusiyanın Ermənistana təsiri mümkündür, çünki bu ölkənin iqtisadiyyatı Rusiyanın əlindədir. Ona görə də Rusiya Qərb ölkələrinin işləməsindən narahat deyil. Qərb ölkələri işləyib Paşinyanı hakimiyyətə gətirdilər. Paşinyan da baxdı ki, Rusiya Qərbdən yaxındır, ona görə də rusların ətəyindən əl çəkmir.

Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi Rusiyaya da lazımdır. Ona görə də bu sülh müqaviləsini bağladacaq. Bu sülh heç şübhəsiz ki, Azərbaycana da lazımdır, Türkiyəyə də, Qərbə də... Şarl Mişel Paşinyanı sülh müqaviləsini bağlamağa dəvət etdi. Odur ki, Ermənistan əlacsız qalıb bağlayacaq.

***- O zaman Ermənistan tərəfdən verilən radikal bəyanatlar, etdiyi hiylələr nəyə yönəlib, nəyin vaxtını uzadırlar? Ermənistan Rusiya-Ukrayna müharibəsinin bitməsindən nəsə gözləyə bilərmi?***

- Vaxt uzadır ki, birdən Qərbin mövqeyi dəyişdi, ya da Rusiyanın mövqeyi dəyişdi.

Rusiya-Ukrayna müharibəsinin nəticəsi artıq məlumdur; Rusiya qalib gəlib. Odur ki, onun nəticəsini gözləməyin mənası yoxdur.

***- Müharibə bitməyibsə, Rusiya nədə qalib gəlib?***

- Ukrayna məğlub olub. Rusiya müharibəni intensivləşdirmir. Rusiya müharibədə cəmi 18 faiz qüvvəsindən istifadə edib. Qərb Ukraynaya silah versə də, heç nə edə bilməyəcək. Ukrayna rus ordusunun qarşısında tab gətirə bilməyəcək. Rusiya qarşısına qoyduğu məqsədlərə nail olacaq.

***- Ekspertlər, siyasilər təhlillərində bildirirlər ki, Ukrayna bu müharibədə qalibdir...***

- Həmin ekspertlər Rusiyanın əleyhinə yönəlik çıxışlar edirlər. Ümumiyyətlə, 20 Yanvar hadisəsindən sonra Azərbaycanda ruslara münasibət mənfidir və bu da təbii qarşılanmalıdır. Amma ekspert obyektiv olmalıdır. Məsələ budur ki, bütün dünya da kömək etsə, Ukraynanın Rusiyanın qarşısında durmağa təpəri yoxdur. Sizə bir misal çəkim: 1941-ci ildə Hitler SSRİ-yə hücum edəndə bütün Avropa Hitlerin tərəfində idi. Amma qalib gələ bilmədi.

***- O zaman SSRİ-də olan bütün respublikalar, xalq Rusiyanın yanında idi. İndi belə qeydlər var ki, situasiya fərqlidir...***

- Rusiyanı buna məcbur etdilər. Xalq Putini necə dəstəkləmir ki, hazırda reytinqi 90 faizə qalxıb?! Bir-iki pop müğənnisinin Putinin əleyhinə çıxması hələ rus xalqı deyil. Rus xalqı dəzgah arxasında duranlardır, kənd zəmilərində işləyənlərdir. Ruslarda qəribə bir xarakter var: müharibə olanda tez birləşir.

***- Biz bu müharibənin əleyhinəyik...***

- Putin də bunun əleyhinədir. Fevralın 24-də müharibəni başlamazdan qabaq Zelenskiyyə dedi ki, ordunu geri çək. Zelenski intina etdi. Sonra məlum oldu ki, Zelenskinin təkcə Donbası, Donetski yox, Krıma da hücum etmək fikri var idi. Ona görə də 170 minlik ordunu bir yerə toplamışdı. Bu onu göstərir ki, Zelenski uzaqgörən deyil, başa düşmədi ki, 170 min ordu ilə ruslara qalib gəlmək mümkün deyil. Zelenskini də müharibəyə məcbur etdilər. Hər bir ölkə başçısı birinci növbədə öz ölkəsini düşünməlidir, qonşu ölkəni yox. Putin də bilir ki, ukraynalılar da ruslardır, onlar da qardaş millətdir. Gördü ki, qardaş millətin rəhbərləri faşizim yolunu tutublar və gələcəkdə Rusiya dövlətinə qarşı zərbə üçün plasdarm olacaqlar. 2021-ci ildə Rusiya xəbərdarlıq etdi ki, ya Gürcüstanla Ukraynanın NATO-ya qəbulunu ləğv edirsiniz, ya da biz hərbi-texniki tədbirlər görəcəyik. Qərb elə fikirləşdi ki, Putindir də, danışıb, susacaq. Ona məlum idi ki, Amerika Avropa dövlətlərində öz nüvə silahlarını yerləşdirir. Əgər ABŞ Xarkovda NATO adı ilə raketlərini qoysaydı, hansı ki, onların Moskvaya qədər uçuşu 4 dəqiqədir, o zaman Moskva bu 4 dəqiqəyə özünü müdafiə edə bilməzdi. Ona görə də zərbə altında qalacağını düşünən Putin məcburən Ukraynanı vurdu.

***- Bu mühribədə kimin məğlub olacağını silahlar dayanandan sonra ortaya qoyulan şərtlər, nəticələr göstərəcək. Bizim üçün bu müharibənin həm də regiona hansı təsirlərinin olacağı maraqlandırır...***

- Müharibənin nəticələrinin bizim regiona heç bir təsiri olmayacaq. Kimsə deyirsə ki, Putin SSRİ-ni bərpa etmək istəyir, boş sözlərdir. Putinun öz sözü var: "SSRİ-nin dağılmasından təəssüflənməyənin ürəyi yoxdur, bərpa eləmək istəyənin başı...". O, bu sözləri yəqin ki, özü üçün demir.

***- Rusiya başqa bir formatda keçmiş sovet sosialist respublikaları ilə əməkdaşlıq edib, onlara nəzarət etmək istəyini də əldən vermək istəməyəcək...***

- Hər bir dövlət çalışır ki, onun ətrafında dostları çox olsun. Mən dəfələrlə demişəm ki, bu gün Azərbaycan özünə "böyük qardaş" axtarmır. Azərbaycan bərabərhüquqlu dost axtarır. Rusiya da çalışır, keçmiş sovet respublikaları onun dostu olsun. Başqa niyyətlər varsa, siyasi səhnədə məğlub olcaq.

***- Bu gün Azərbaycan sərhədləri daxilində Rusiyanın sülhməramlıları xidmət edir. Rusiyanın imza atdığı üçtərəfli sənədə görə erməni silahlıları Qarabağdan çıxarılmalı idi, sərhədlər müəyyənləşməli, kommunikasiyalar açılmalı, Zəngəzur dəhlizi açılmalı idi. Bu istiqamətdə Rusiyanın sərgilədiyi mövqe nə dərəcədə qanedicidir?***

- Rusiyan sülhməramlıları hələ ki, öz vəzifələrini normal icra etmirlər. Bu da sülhməramlılara rəhbərlik edən şəxslərin fəaliyyətindən asılıdır. İş ondadır ki, rus sülhməramlılarında dinpərəstlik var. Düşünürlər ki, ermənilər də xristiandırlar və onlara qarşı daha loyal olmalıdırlar. Əslində, Azərbaycan tələb etməlidir ki, ruslar separatçı Arutunyanı həbs edib bizə təhvil versin. Azərbaycan bunu tələb etmir. Rusiya rəhbərliyi ilə görüşdə bu tələb qoyulmalıdır. Dəfələrlə sülhməramlıların fəaliyyəti ilə bağlı iradlar bildirilib, tələblər irəli sürülüb. Bunun rəsmi səviyyədə Putinə deyilməsi barədə xəbərlərdə heç nə görməmişəm.

*✍ Tahirə Qafarlı*

# Türkiyə istədiyini aldı




## NATO Sammitinin nəticəsi

**Türkiyə ilə İsveç və Finlandiya arasında neçə vaxtdır davam edən müzakirələr, axır ki, dünən NATO-nun Madriddə keçirilmiş Zirvə toplantısında öz nəticəsini verdi. Yəni Türkiyə adıçəkilən ölkələrin NATO-ya daxil olmasına razılaşdı - amma qarşı tərəf üçün çox ağır şərtlərlə.**

Nədir qarşı tərəf üçün ağır olan şərtlər? Rusiyanın Ukraynaya hücumundan sonra Finlandiya və İsveç indiyədək NATO-ya qatılmamaqla səhv etdiklərini, bir dövlət kimi təhlükəsiz olmadıqlarını, sabah rusların hərbi təcavüzünə uğraya biləcəklərini başa düşdülər. Moskvanın sərt reaksiyasına rəğmən NATO-ya üzv olacaqlarını bildirdilər və rəsmi müraciət etdilər. ABŞ və Avropa liderləri İsveç və Finlandiyanın müraciətini birmənalı şəkildə alqışlasalar da, hər şey rəvan getmədi - Türkiyə bu ölkələrin üzvlüyünə veto qoyacağını açıq-aşkar üzlərinə dedi. Səbəb də aydın idi: PKK terrorçularının düşərgəsinə çevrilmiş hər iki ölkə Ankaranın tələblərinə əməl etməli, Türkiyə dövlətinin maraqlarına zidd davranış nümayiş etdirən şəxslərin və təşkilatların fəaliyyəti nəzarətə götürülməli, adı terror siyahısında olanlar Ankaraya verilməli, qısası, Türkiyə ilə əsl müttəfiq olaraq davranılmaldır.

NATO-nun Zirvə görüşü çərçivəsində Türkiyə ilə İsveç və Finlandiya arasında imzalanmış dördtərəfli anlaşmada aşağıdakı bəndlər təsdiqini tapıb:

*- PKK və onun törəmələrinə qarşı mübarizədə Türkiyə ilə tam əməkdaşlıq;*

*- Terrorun bütün forma və təzahürləri ilə mübarizədə Türkiyə ilə həmrəylik nümayiş etdirmək;*

*- PYD/YPG və FETÖ-yə dəstək verməmək öhdəliyi;*

*- Müdafiə sənayesi sahəsində embarqo məhdudiyyətlərinin qoyulmaması və əməkdaşlığın artırılması;*

*- Terrorla mübarizə və müdafiə sənayesi üzrə İsveç və Finlandiyanın milli qanunvericiliyinə və təcrübələrinə düzəlişlər etmək öhdəliyi;*

*- Terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində kəşfiyyat məlumatlarının mübadiləsi üzrə strukturlaşdırılmış əməkdaşlıq mexanizminin yaradılması;*

*- Terrorçu cinayətkarların ekstradisiyası ilə bağlı konkret addımların atılması və ikitərəfli müqavilə üzrə tənzimləmələrin aparılması;*

*- PKK və onun cəbhə təşkilatlarının pul toplama, işə götürmə fəaliyyətinin qadağan edilməsi və onların araşdırılması;*

*- Türkiyənin əleyhinə terror təbliğatının qarşısının alınması;*

*- Finlandiya və İsveçin Avropa İttifaqının təhlükəsizlik mexanizmlərində, o cümlədən PESKO (Aİ Daimi Strukturlaşdırılmış Əməkdaşlıq Prosesi) ən geniş iştirakının dəstəklənməsi;*

*- Bu addımların icrasına nəzarət etmək üçün Ədliyyə, Kəşfiyyat və Təhlükəsizlik qurumlarının iştirakı ilə Daimi Birgə Mexanizmin yaradılması.*

Maraqlıdır, bu iki adıçəkilən dövlət üçün ilk başdan Türkiyənin tələblərini qəbul eləmək çox çətin idimi? Əlbəttə ki. yox. Sadəcə bu ölkələr xristian-Qərb blokunun müsəlman-Şərq Türkiyəsini hələ də ciddiyə almaq istəmirdi. İsveç və Finlandiya kimi iki balaca dövlətin hələ də qəflət yuxusundan ayılıb Türkiyənin artıq əvvəlki kimi zəif və ələbaxan Türkiyə olmadığını görməsi lazımkən, onlar əksinə, fürsət tapan kimi bu ölkəyə nələrisə diqtə etməyə çalışırdılar. Bu müstəvidə türklər bəlkə də, nə qədər acı da olsa, Rusiyaya minnətdar olmalıdır ki, Avropada yaratdıqları irtica siyasəti ilə Qərbi qorxuda və paralel olaraq Türkiyənin ayağına göndərdi.

Burada başqa amillər də diqqəti çəkir. İlk vaxtlar çoxları düşünürdü ki, əgər İsveç və Finlandiya NATO-ya qoşulmaq istəyirsə və təbii ki, ittifaqa üzv dövlətlərin liderləri də bunu istəyirlərsə, Türkiyənin nə deməsinin əhəmiyyəti yoxdur. Yəni ABŞ və Avropa liderlərinin təzyiqi qarşısında Ankara mütləq yola gələcək. Bunu hətta İsveçin Baş naziri Maqdalena Andersson və Finlandiya prezidenti Sauli Niinistö dəfələrlə dilə gətirmişdilər. Onlar Ankaranın tələbləri qarşısında özlərini çox arxayın aparırdılar. Niyə, çünki Amerikaya, Fransaya, Almaniyaya güvənirdilər. Amma günlər ötdükcə NATO-nun Baş katibi Yens Stoltenberq bu ölkələrə başa saldı ki, Ərdoğan zarafat eləmir, nə deyirsə edin, əks təqdirdə müdafiə blokuna daxil ola bilməyəcəksiniz.

Başqa bir amil isə adıçəkilən Skandinav ölkələrində Vaşinqtona bel bağlamaları idi. Onlar əmin idilər ki, dünyaya diqtəni Vaşinqton edir, Ağ Evdən dəstək verilsə türkiyə avtomatik buna əməl edəcək. Amma nə oldu, Ağ Ev əlbəttə ki, uzun müddət Türkiyəyə təzyiq göstərib yola gətirmək istədi, amma konkret mövqeyindən daşındıra bilmədi. Baxın: Madrid razılaşması imzalananadək Abş tərəflərə heç nə demədi və İsveçlə Finlandiyanı Türkiyə ilə təkbaşına qoydu. Yəni "mən bir şey edə bilmədim, özünüz dil tapın" dedi. Dördtərəfli görüşdən həmən sonra isə Co Bayden tərəfləri razılığa gəldikləri üçün təbrik etdi. Çünki Bayden anlayırdı ki, Moskva Türkiyənin rəğbətini qazanmaq üçün əlindən gələni edir. İsveç və Finlandiyaya görə Ərdoğana təzyiq etsələr bundan yararlanan ancaq Rusiya olacaq...

Əlbəttə, görünür razılaşma Qərb dövlətləri üçün həyati əhəmiyyətliymiş ki, imza törənindən dərhal sonra liderlər bir-birinin ardıyla sevinclərini biruzə veriblər. Co Bayden "bu qərar ittifaqımızı gücləndirəcək, kollektiv təhlükəsizliyimizi artıracaq. Bu, NATO sammiti üçün əla başlanğıcdır", Böyük Britaniyanın Baş naziri Boris Conson "Bu, fantastik xəbərdir. İsveç və Finlandiyanın üzvlüyü bizim parlaq ittifaqımızı daha güclü və təhlükəsiz edəcək", Norveçin Baş naziri Jonas Gahr Store "İsveç və Finlandiya ilə NATO Avropada daha da güclü müttəfiqliyə nail olacaq. Norveç üçün bu, şimal qonşularımızla daha təhlükəsiz və güclü müdafiə əməkdaşlığı deməkdir" deyib və sair.

Dünya mediası da baş verənləri Türkiyənin razılıq verməsi xəbərini az qala dünyanın xilası səviyyəsində hadisə kimi manşetlərə daşımaqdadır.

■ **"New York Times" qəzeti hadisələri canlı yayımladığı xəbərdə "Finlandiya və İsveçin NATO-ya üzv olmasına mane olan diplomatik mübahisə həllini tapdı, Türkiyə iki Skandinaviya ölkəsinin təşkilata üzvlük müraciətinə qoyduğu vetonu ləğv etdi" bildirir.**

■ **"The Guardian" yazıb ki, Türkiyə Finlandiya və İsveçin NATO üzvlüyünə etirazını geri götürdü. Avropa daha təhlükəsiz olacaq.**

■ **"Newsweek" yazıb ki, "Putinin Ukraynaya təcavüzü üçün irəli sürdüyü bir neçə səbəbdən biri onun NATO-nun genişlənməsinin qarşısını almaq istəyi idi. Amma görünən odur ki, Putinin təcavüz siyasəti ancaq NATO-ya yaradı".**

■ **"Washington Post" qəzeti yazıb ki, "Türkiyə çərşənbə axşamı ittifaqın böyüməsinə yol açdı. Madriddə keçirilən sammit son illərin ən mühüm NATO zirvəsi oldu".**

■ **"Politico" yazır: "Türkiyə, Finlandiya və İsveç NATO-ya üzvlük hədəfləri qarşısındakı maneəni aradan qaldırdı".**

■ **İsrailin "Haaretz" qəzeti isə belə yazıb: "Türkiyə istədiyini aldı"...**

Prosesə münasibət bildirən "Atlantic Council"in Türkiyə üzrə ekspertlərindən Riç Outzen qeyd edib ki, Ankaranın terrorla bağlı narahatlığını NATO-nun gündəminə gətirməyi birmənalı şəkildə Ərdoğanın uğurudur. "Türkiyənin əsas məqsədinin ABŞ-dan "F-16" qırıcıları almaq deyil. Ərdoğan PKK ilə bağlı təhlükəsizlik narahatlığının səmimi olduğunu göstərdi", - deyib Qutzen.

"Atlantic Council"in rəhbəri Fred Kempe isə deyib ki, sitat: imzalanmış anlaşma Ərdoğanın ustalıqla oynadığı oyundur. Ərdoğan təhlükəsizlik və daxili siyasətdəki maraqları üçün mümkün olan ən çox şeyi əldə etmək məqsədilə bu prosesdə maksimim şey qazandı.

*✍ Vüsal Tağıbəyli*

# Kəlbəcər və Laçının iqtisadi potensialı

**Azərbaycan Prezidenti İlham Əliyevin iyunun 26-da Kəlbəcər və Laçın rayonlarına səfəri mühüm tarixi və strateji əhəmiyyət daşıyır. Dövlət başçısı səfər zamanı bir sıra layihələrin təməlini qoydu, bərpa və yenidənqurma işləri ilə tanış oldu. Belə ki, Prezident Göygöl rayonunda Toğanalı-Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində inşa edilən iki tunelin tikintisi ilə tanış olub, Kəlbəcər rayonunda yeni tikilmiş ”Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyasının və Müdafiə Nazirliyinin ”N” saylı hərbi hissəsinin açılışlarında iştirak edib, Kəlbəcər-Laçın avtomobil yolunun inşası və Laçın rayonunda 110 kV-luq “Qorçu” elektrik yarımstansiyasında aparılan işlərlə tanış olub.**



## İqtisadiyyat

Dövlət başçısına Laçın rayonunda ”Həkəriçay” su anbarı layihəsi təqdim edilib. Prezident Laçın Beynəlxalq Hava Limanının tikintisi ilə də tanış olub. Dövlət başçısına həmçinin Kəlbəcər şəhərinin baş planı təqdim edilib. Sonra Prezident Kəlbəcər İşğal və Zəfər muzeyləri kompleksinin, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, Kəlbəcər rayonunda su istehsalı zavodunun, İstisu sanatoriyasının təməlini qoyub, tikilməkdə olan ”Çıraq-1” kiçik su elektrik stansiyasında olub.

“

*Hər iki rayonun Azərbaycanın qeyri-neft istehsalına da xüsusi töhfə verməsi gözlənilir*

Bəs, görəsən, Prezident İlham Əliyevin Kəlbəcər və Laçına səfərinin iqtisadi cəhətdən hansı əhəmiyyəti var? Bu rayonların mövcud potensialı, hazırda həmin ərazilərdə həyata keçirilən layihələr gələcəkdə ölkə iqtisadiyyatına hansı dvidentləri qazandıracaq?

Bəri başdan deyək ki, Kəlbəcər və Laçın rayonları Şərqi Zəngəzur iqtisadi rayonunun xüsusilə faydalı ehtiyatları, turizm imkanları və kənd təsərrüfatının inkişafı baxımından növbəti mərhələdə regionun əsas investisiya mərkəzlərini təşkil edəcək. Bu rayonlarda aparılan infrastruktur layihələri ərazinin Azərbaycan iqtisadiyyatına inteqrasiyasını qısa zamanda təmin edəcək.

Hər iki rayonun xüsusilə xarici investorları cəlb edəcək imkanları mövcuddur. Kəlbəcərin təbii resursları və turizm potensialı xüsusilə seçilir. Qızıl, xrom yataqları, sənaye əhəmiyyəti civə ehtiyatları ilə zəngin olması Kəlbəcəri xarici investorlar üçün cəlbedici edir. Nəzərə alsaq ki, qeyri-neft sektoru üzrə hazırda qızıl ölkəyə xarici valyuta gətirən əsas üç məhsuldan birini təşkil edir. Üstəlik pandemiya qızılın ən etibarlı aktivlərdən biri olduğunu və növbəti dövrdə də qızılın qiymətinin beynəlxalq birjalarda artmağa davam edəcəyini sübut etdi. Zəngilan və Kəlbəcər rayonlarının potensialından səmərəli istifadə Azərbaycanın növbəti dövrdə qızıl ixracını daha da artıracaq.

Həmçinin, Laçında aqrar, sənaye və turizm sahələrini inkişaf etdirmək mümkün olacaq. Rayon xüsusilə civə yataqları ilə zəngindir və bölgədə tikinti-inşaat sektoru üçün əhəmiyyətli hesab edilən xammal bazası mövcuddur. İşğaldan öncə burada mərmər, əhəng sexləri, iki ədəd daş karxanası fəaliyyət göstərib. Bu xüsusiyyətlərinə görə Laçın davam edən layihələrin həyata keçirilməsi yaxın zamanda yerli və xarici biznes dairələrinin əsas hədəfini təşkil edə bilər.

Həm Kəlbəcər, həm də Laçının tarixi abidələrlə zəngin olması bölgəni bir çox turist üçün maraqlı edəcək. Belə ki, Kəlbəcər-Laçın bölgəsi tarixi-mədəni abidələrlə zəngindir. Dünya əhəmiyyətli memarlıq abidələrinə Kəlbəcər rayonunda Gəncəbasar monastırı (XIII əsr), Tərtər çayının sahilində Xudavəng monastırı (XIII-XVII əsrlər) aid edilir. Bölgədə ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələrinə Kəlbəcərin Çıldıran, Qarnakar, Qocaqot kəndlərində alban məbədləri, ilk və orta tunc dövrünə aid yaşayış yerləri, Qubadlı rayonunun Əliquluuşağı kəndində Göyqala (V əsr), Mağara məbədi, Balalıəsənli kəndində sığınacaqlar (IV əsr), Laçın rayonunda Cicimli kəndində türbələr (XIV və XVIII əsrlər), kurqanlar (Dəmir dövrü), Qoçaz kəndində Mağara məbədi (V əsr), Zəngilan rayonunun Əmirxanlı kəndində Qız qalası (XII əsr), Məmmədbəyli kəndində səkkizguşəli türbə (XIV əsr) aid edilir.

Kəlbəcər-Laçın bölgəsində həmçinin, yerli əhəmiyyətli tarixi-mədəni abidələr də çoxdur (məscid, məqbərə, qədim yaşayış yerləri və s.). Bütün bunlar isə yaxın gələcəkdə Azərbaycanı təkcə bölgənin deyil, dünyanın turizm istiqamətlərindən birinə çevirəcəyinə şübhə yaratmır. Üstəlik bölgə kənd təsərrüfatı, o cümlədən də heyvandarlıq və əkinçilik üçün də geniş imkanları özündə cəmləşdirir. Bütün bu sahələrə investisiyaların cəlbinə imkan yaradacaq infrastruktur layihələrinin böyük qisminə artıq start verilib.

■ **Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Vüqar Bayramov da Prezident İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfərini hafta.az-a şərh edərkən bildirib ki, Kəlbəcər və Laçında həyata keçirilən işlər bərpa və yenidənqurma prosesinin qısa zamanda həyata keçirilməsi və daha intensiv şəkildə infrastrukturun formalaşdırılmasına imkan verəcək.**

Onun sözlərinə görə, bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi üçün həm nəqliyyat, həm də logistika xidmətlərinin formalaşdırılmasına ehtiyac var idi ki, növbəti mərhələdə daha qısa zamanda məskunlaşma prosesinə başlaya bilək: “Kəlbəcər və Laçının iqtisadi potensialı kifayət qədər böyükdür. İntensiv infrastrukturun formalaşdırılması həmin bölgələrimizin Azərbaycan iqtisadiyyatında payının artmasına imkan verəcək. Keçmiş Kəlbəcər-Laçın iqtisadi rayonu, hazırkı Şərqi Zəngəzur iqtisadi rayonunun işğalı nəticəsində Azərbaycan iqtisadiyyatındakı payı 27 il ərzində cüzi olub. Azərbaycan iqtisadiyyatının cəmi 0,6 faizini formalaşdırıb. Bu isə əsasən həmin rayonların digər bölgələrimizdə fəaliyyət göstərən müəssisələri hesabına baş verib. Lakin işğaldan əvvəlki dövrün Kəlbəcər və Laçın iqtisadiyyatı göstərir ki, bərpa və yenidənqurma mərhələsindən sonra bu rayonlarımızın Azərbaycan iqtisadiyyatının 4 faizini formalaşdırmaq imkanı var”.

Millət vəkili qeyd edib ki, Kəlbəcər Cənubi Qafqazda azsaylı bölgələrdəndir ki, fasiləsiz turizm xidməti təklif etmək imkanı var. Bura yay-qış, tarixi, dini, sağlamlıq turizm imkanları daxildir. Bu isə turistlərin cəlb edilməsi, fasiləsiz turizm xidmətinin təklif edilməsi baxımından vacibdir: “Hazırda bu ərazilərin investisiya imkanları genişlənib. Bu, yerli və xarici investorlar üçün maraqlı olacaq. Xarici investorlar üçün bərpa-yenidənqurma mərhələsindən sonra Kəlbəcərdə sərmayə qoyuluşunun həyata keçirilməsi cəlbedici olacaq. Bu ərazinin zəngin və faydalı ehtiyatlarının işlənməsinə xarici investorların cəlb edilməsi həyata keçiriləcək. Türkiyə şirkəti ilə bu istiqamətdə anlaşmalar var. Gözlənilir ki, növbəti mərhələdə daha çox xarici investisiyanın sənaye məhsullarının istehsalına cəlb edilməsi mümkün olacaq”.

Vüqar Bayramovun sözlərinə görə, Laçın aqrar və turizm, eləcə də təbii ehtiyatlar baxımından seçilən bölgələrimizdəndir. Burada beynəlxalq aeroportun inşası və istifadəyə verilməsi daha çox turistin bölgəyə səfər etməsi, həmin ərazilərimiz vasitəsilə daha çox yükdaşımaların həyata keçirilməsinə imkan verəcək:

“Hər iki rayonun Azərbaycanın qeyri-neft istehsalına da xüsusi töhfə verməsi gözlənilir. Bütöv-lükdə Kəlbəcər və Laçın növbəti dövrlərdə işğaldan azad olunmuş ərazilərimiz baxımından iqtisadi inkişafın drayverlərindən birinə çevriləcək. Bərpa və yenidənqurma prosesindən sonra qısa zamanda hər iki rayon Azərbaycan iqtisadiyyatının böyüməsinə, xüsusilə də qeyri-neft sektorunda drayverlərdən biri kimi çıxış edəcək”.

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən iqtisadçı-ekspert Akif Nəsirli də hesab edir ki, adıçəkilən rayonların çox böyük iqtisadi potensialı mövcuddur: “Bu potensialı əsas 3 istiqamətdə qruplaşdırmaq olar.** Birincisi, bu ərazilərdə aqrar sektorun inkişafı üçün geniş imkanlar var. Bu rayonların əhalisinin böyük əksəriyyəti vaxtilə heyvandarlıqla məşğul olub. Təbii ki, bu istiqamətdə ciddi nəticələr əldə etmək üçün həmin ərazilərə əhalinin böyük köçü reallaşmalıdır. Digər tərəfdən bölgənin çox geniş turizm potensialı var və bu sahədə ölkə iqtisadiyyatına ciddi tövhələr verə bilər. Ümumilikdə, bu iki rayon və Şuşa turizm üçün ən əhəmiyyətli rayonlardır. Hazırda bu ərazilərdə infrastrukturun yaradılması, kommunikasiyaların qurulması prosesi gedir.

“

*Bu rayonların əhalisinin böyük əksəriyyəti vaxtilə heyvandarlıqla məşğul olub*

Eyni zamanda, bu bölgələr təbii sərvətlərlə də zəngindir. Bu ərazilərdə qızıl, mis yataqları var, mineral su ehtiyatları mövcuddur və.s. Prezident də budəfəki səfərində Kəlbəcər rayonunda su istehsalı zavodunun, İstisu sanatoriyasının təməlini qoydu. Bu təməlqoyma düşünürəm ki, çox böyük iqtisadi, həm də mənəvi əhəmiyyət daşıyır və gələcəkdə ölkə iqtisadiyyatına öz töhvəsini verəcək”.

✍ Sevinc

# “Azərbaycan xalqı qurub-yaradan xalq olduğunu dünyaya nümayiş etdirir”

**Milli Məclisin deputatı Əliabbas Salahzadə dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin 26 İyun – Silahlı Qüvvələr Günündə Kəlbəcər və Laçın rayonlarına səfərindən geniş bəhs edərək bildirib ki, ölkə Prezidentinin hər bir səfəri işğal və Zəfər dövrümüzün reallıqlarının bu məkanlardan dünyaya çatdırılmasında əhəmiyyətli rol oynayır:**



**Əliabbas Salahzadə,**
Milli Məclisin deputatı

“Bir daha bəyan edilir ki, torpağın əsl sahibi qurub-yaradan olur, keçmişlə deyil, gələcəklə yaşayıb hədəflərə nail olmaq istiqamətində səylər göstərir. Azərbaycan işğal dövründə də bir amal uğrunda mübarizə apardı ki, torpaqlarımız işğaldan azad edilsin, ərazi bütövlüyümüz bərpa olunsun. Baxmayaraq ki, haqq-ədalət, beynəlxalq hüquq Azərbaycanın tərəfində idi, Ermənistana “Azərbaycan torpaqlarından çıx!” deyən olmadı. Azərbaycan xalqı bütün gücünü səfərbər edib tarixi şərəfli missiyanı yerinə yetirdi”.

Əliabbas Salahzadə qeyd edib ki, dövlət başçısı İlham Əliyev Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdəki nitqində bir daha tarixi Zəfərimizə gedən yolu təhlil etdi: “Azərbaycan bu tarixi Zəfərə nail olmaq üçün gücləndi, qüdrətləndi. İqtisadi müstəqilliyini təmin etdi. Bu mühüm addım ölkəmizin beynəlxalq aləmdə mövqeyini möhkəmləndirməsində əhəmiyyətli rol oynadı. Müzəffər Ali Baş Komandanın qeyd etdiyi kimi, bu gün dünyada güc amili ön plandadır. Beynəlxalq hüququn norma və prinsipləri işləmir, beynəlxalq təşkilatlar faktiki olaraq fəaliyyəti formal şəkildə davam etdirir”.

Millət vəkili onu da əlavə edib ki, dünyanın ikili standartlara əsaslanan siyasətinin fonunda Azərbaycan heç zaman ruhdan düşmədi, əksinə aparılan qərəzli təbliğatı real faktlarla, tarixi həqiqətlərlə cavablandırdı: “Nəhayət, 44 günlük İkinci Qarabağ müharibəsində həm döyüş meydanında, həm də informasiya cəbhəsində üstünlüyünü Ermənistana və ona havadarlıq edib 30 ildə danışıqların imitasiya naminə aparılmasına səbəb olan dövlətlərə nümayiş etdirdi. Azərbaycan tarixi Qələbəsi ilə gənclərimizin necə vətənpərvər, torpağa bağlı olduqlarını təsdiqlədi. Dövlət başçısı nitqində bir daha bildirdi ki, bizi Qələbəyə aparan ən başlıca amil milli ruh, ləyaqət, Vətənə sevgi idi və bunu gənc nəslin nümayəndələri, müstəqillik dövründə yetişən gənclər etdilər”.

“Müstəqilliyimizin, suverenliyimizin, ərazi bütövlüyümüzün qarantı olan ordumuzun daha da güclənməsinin, qüdrətlənməsinin bundan sonra da prioritet olacağını bəyan edən dövlət başçısı İlham Əliyev bildirdi ki, müharibədən sonra bu gün Azərbaycan Ordusu həm təchizat, həm də döyüş qabiliyyəti nöqteyi-nəzərdən daha güclüdür. Ən müasir silahları almaq üçün yeni kontraktlar imzalandı. Bu kontraktlar artıq icra olunur, yeni silahlar, ən müasir texnika Azərbaycana gətirilir və gətiriləcək. Ermənistanla sərhəddə mövqelərimiz daha da möhkəmlənəcək. Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq”,- deyə Əliabbas Salahzadə vurğulayıb.

Millət vəkili postmünaqişə dövrünün reallıqlarından, Azərbaycanın bu reallıqların qəbulu istiqamətində atdığı addımlardan və onların uğurlu nəticələrindən geniş bəhs edib: “Dünya gücləri postmüharibə reallıqlarını artıq qəbul edib və öz fəaliyyətini bu reallıqlar əsasında qururlar. Ermənistan da bu reallığı qəbul etməlidir. Azərbaycan tərəfi Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində real addımların atılmasında maraqlı olduğunu təklif etdiyi sülh müqaviləsi ilə təsdiqləyir. Regionda dayanıqlı sülhün və təhlükəsizliyin yaradılması üçün belə bir addımın atılması vacibdir. Amma ilyarımdır Ermənistanın seyrçi mövqedə dayandığını görürük. Ermənistan artıq fəaliyyətinə ehtiyac duyulmayan ATƏT-in Minsk qrupunun vasitəçilik missiyasının davam etdirilməsində maraqlı olduğunu açıq şəkildə bildirsə də Azərbaycan tərəfi bunun mümkünsüzlüyünü tarixi Zəfərimizdən sonra dəfələrlə bəyan edib. Təbii ki, Azərbaycan özü təkbaşına ədaləti bərpa edib, beynəlxalq hüquq deyilən məfhumun mövcudluğunu dünyaya çatdırırsa, torpaqlarını işğaldan azad edirsə, ATƏT-in Minsk qrupunun Ermənistana dəstəkdən ibarət vasitəçiliyinə nə ehtiyac vardır?”

Əliabbas Salahzadə işğaldan azad edilmiş ərazilərimizdə geniş miqyas alan bərpa-quruculuq işlərindən də danışıb: “Dövlət başçısının Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı açılışında və təməlqoyma mərasimlərində iştirak etdiyi sosial obyektlərin say tərkibinə diqqət yetirək. Ölkə Prezidenti, həmçinin bərpası davam edən sosial obyektlərdə görülən işlərlə də tanış oldu. Bütün bunlar Azərbaycan xalqının necə qurub-yaradan xalq olması ilə yanaşı, ölkəmizin iqtisadi imkanlarının da təqdimatıdır. Çünki bütün bu işlər Azərbaycanın öz maliyyə imkanları hesabına həyata keçirilir”.

Millət vəkili Prezident İlham Əliyevin 26 iyun tarixində Kəlbəcər rayonunda “İstisu” sanatoriyasının təməlqoyma mərasimindəki çıxışına da diqqəti yönəldərək bildirib ki, Kəlbəcər və Laçın rayonlarının inkişafı ilə bağlı lazımi addımlar atılır: “Keçən il 4 su elektrik stansiyası istifadəyə verilib. Bu il isə 5 su elektrik stansiyasının istifadəyə verilməsi təmin ediləcək. Bu rayonlarda 10-dan çox tunel inşa edilir. Kəlbəcər rayonunun inkişafı ilə bağlı konsepsiya artıq hazırdır. Kəlbəcər şəhərinin Baş planı təsdiq edildi, İşğal və Zəfər muzeyləri kompleksinin təməli qoyuldu. Atılan hər bir addım həqiqətlərimizin təbliğində də öz sözünü deyir və deyəcək. O da məlumdur ki, işğaldan azad edilmiş ərazilərimizdə üç Beynəlxalq Hava Limanının tikintisi nəzərdə tutulub ki, bunlardan Füzuli Beynəlxalq Hava Limanı ötən il istifadəyə verilib. Zəngilan Beynəlxalq Hava Limanının bu il istifadəyə verilməsi nəzərdə tutulur. Dövlət başçısı İlham Əliyev Laçın rayonuna səfəri zamanı Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə də tanış oldu. Ölkə Prezidentinin vurğuladığı kimi, bu hava limanının tikintisinin ən çətin tərəfi Laçın və Kəlbəcər rayonlarında düz yerin olmamasıdır. Ona görə də dağlar yarılır və kəsilir ki, zolaq üçün uyğun şərait yaradılsın. 2024-cü ildə Laçın Beynəlxalq Hava Limanının açılışı nəzərdə tutulur və bundan sonra gediş-gəliş daha rahat olacaq”.

Əliabbas Salahzadə işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinin miqyasının genişliyi fonunda bir daha bu əminliyi ifadə edib ki, Böyük Qayıdış hər gün yaxınlaşır. yap.org.az



■ **Ehtiyac olduğu müddətdə Ukrayna bizə arxalana bilər. Bunu NATO-nun Baş katibi Yens Stoltenberq mətbuat konfransında deyib. O bildirib ki, Rusiya Ukraynaya müharibə elan etməklə Avropada sülhü pozub:**

“Biz İkinci Dünya müharibəsindən sonra ən böyük təhlükəsizlik böhranı ilə üzləşdik”. Baş katib Ukrayna Prezidentinin liderliyi və cəsarətini yüksək qiymətləndirib. “Mən şadam ki, bu gün Prezident Zelenski bu sammitə qoşuldu. Bizim, NATO-nun mesajı aydındır: Ukrayna ehtiyac olduğu müddətdə bizə arxalana bilər. Biz Ukraynaya əsas hərbi və maliyyə dəstəyi verməyə davam edəcəyik. Bu gün NATO müttəfiqləri Ukrayna üçün hərtərəfli dəstək planı barədə razılığa gələrək bu ölkəyə dəstəklərini gücləndirəcəklər.



■ **Ukrayna Prezidenti Vladimir Zelenski İsveç və Finlandiyanın NATO-ya inteqrasiyasını dəstəklədiyini bəyan edib. Bu barədə Ukrayna lideri NATO-nun Madrid Sammitində videoformatda çıxışında deyib.**

“İsveç və Finlandiyanın NATO-ya üzv ola bilməsi vacibdir ki, təşkilatınız onları müdafiə edə bilsin”, - o bildirib. Ukrayna Prezidenti əlavə edib ki, sülh naminə NATO-nun şərq sərhədləri ilə bağlı yanaşma dəyişməlidir: “Alyansın şərqdəki bütün üzvlərinin, bütün qonşularımızın Ukraynanın NATO-ya üzvlüyünə tərəfdar olması təsadüfdürmü? Xeyr, bu təsadüf deyil. Bu, məntiqli yanaşmadır. Çünki onlar bizmi regionumuz barədə, buradakı həyat barədə məlumatlıdırlar.



■ **Dünya ictimaiyyəti ərzaq qıtlığı ilə üz-üzədir, iqlim dəyişikliklərinin təzahürləri özünü göstərir. Lakin Azərbaycan hələ ki ərzaq qıtlığı ilə üz-üzə deyil.**

Bunu AQTA-nın Heyvan sağlamlığı şöbəsinin müdiri, respublikanın baş dövlət baytarlıq müfəttişi Qalib Əbdüləliyev jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, hazırda müşahidə olunan iqlim dəyişikliyinin 150 il ərzində nəticəsini göstərəcəyi gözlənilir.

Buna xüsusi hazırlıq lazımdır və bunun üçün də ilk növbədə ərzaq ehtiyatı artırılmalıdır: “10 il bundan əvvəl 1 milyard 300 milyon insan qıtlıqdan əziyyət çəkirdisə, son illərdə bu rəqəm xeyli azalıb. Belə ki, hazırda 850-900 milyon ətrafında insan aclıqdan əziyyət çəkir”.



■ **Böyük Britaniya Qarabağda minaların təmizlənməsi prosesinə əlavə vəsaitin ayrılması məsələsini nəzərdən keçirir. Bunu Trend-ə Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp deyib.**

”Böyük Britaniya minaların təmizlənməsi prosesində Azərbaycana kömək göstərməkdən məmnundur. Biz bu istiqamətdə daha çox maliyyənin ayrılması üçün yeni imkanlar axtarırıq. Ümid edirəm ki, tezliklə yeni maliyyələşmə barədə elan edəcəyik”, - deyə o bildirib. Onun sözlərinə görə, Böyük Britaniya artıq BMT İnkişaf Proqramına Azərbaycan Minatəmizləmə Agentliyinə dəstək üçün 500 min funt sterlinq vəsait ayırıb. Səfir qeyd edib ki, Britaniya şirkətləri Azərbaycana texniki məsləhətlər, qeyri-texniki xidmətlər, minalar əleyhinə fəaliyyət standartları təqdim edir.

# Xalça dünyasına səyahət

***Qədimdən türk xalqlarının üzərində oturduqları, çadırların və daxmaların divarlarını bəzəyən, həmçinin içərini isti saxlamaq məqsədilə istifadə edilən xalçalar zaman keçdikcə mədəniyyətimizin bir parçasına çevrildi. Bu gün Azərbaycan xalçaları və ölkəmizin xalçaçılıq sənəti özünəməxsusluğu ilə dünya mədəniyyətində nüfuzlu yerə sahibdir. Təsadüfi deyil ki, Şərq xalçaçılığı sənətinin qolu olan Azərbaycan xalça sənəti 2010-cu ildə UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı"na daxil edilmişdir.***

## Reportaj

Ölkə ərazisində aparılan arxeoloji qazıntılar və yazılı mənbələrə görə, Azərbaycanda xalça toxuculuğu tunc dövründə, yəni 5 min il bundan əvvəl meydana gəlib. Xalçaçılıqdan söz açmışıqsa, bir məqamı təəssüf hissi ilə qeyd etmək istərdim, bu da günümüzdə xalçalarımızın bəzi dünya muzeylərində hələ də Qafqaz, İran və hətta erməni xalçaları kimi təqdim edilməyidir.

Müasir dövrdə Azərbaycan xalça sənətinin inkişaf etdirilməsi məqsədilə atılan addımlara nümunə olaraq, Prezident İlham Əliyevin 2016-cı il 5 may tarixli Sərəncamı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılmasını göstərmək olar. Ötən il isə prezidentin sərəncamı ilə Emin Məmmədov "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin yeni sədri təyin edildi. Biz də Hafta.az olaraq, son bir ildə qurumun fəaliyyətində baş verən yenilikləri öyrənmək üçün üz tutduq Azərxalçanın İçərişəhərdə yerləşən sərgi və satış salonuna...

İlk olaraq nəzərinizə çatdırım ki, incəsənətin, dünənin və bugünün ilmələrlə işləndiyi məkan yerli və xarici ziyarətçiləri qəbul edir. Burada bizi, "Azərxalça" ASC-nin mətbuat katibi Xatuna Abdullayeva müşayiət etdi. İki mərtəbədən ibarət sərgi salonunun girişində ipək xalılar toxuyan xanımlar iş başındaydı.

Söhbət zamanı X.Abdullayeva bildirdi ki, Azərxalça ASC yaradılandan bəri satış məntəqəsi yox idi. Ta ki, ötən il, hazırda gəzdiyimiz satış və nümayiş salonu fəaliyyətə başlayana qədər... İndi burada hər cür xalçalar sərgilənir. Üstəlik, qısa müddət öncə, ölkədə ilk dəfə olaraq ipək xalçalar da toxunmağa başlanıb. Hazırda Azərxalçada istənilən növ sifarişlər qəbul olunur.



Foto: "HƏFTƏ İÇİ"


Foto: "HƏFTƏ İÇİ"

### Daha çox xarici turistlər xalça alır

**Maraqlı işlərdən biri kimi israilli rəssam Rami Meirin əsərlərinin xalçalara köçürülməsi və satışı, Azərbaycanda fəaliyyət göstərən bir çox xarici ölkə səfirlikləri, özəl şirkətlərdən qəbul olunmuş sifarişləri göstərmək olar.**

Həm yerli, həm də xarici turistlər bura gəlib xalçalarla tanış olurlar. Xatuna xanım deyir ki, daha çox xarici qonaqlar xalça almaqda maraqlıdırlar. Onlar, əsasən, kiçikölçülü, adların yazıldığı suvenir xalılara üstünlük verir. Belə suvenir xalçalarda yerli və xarici adlar həkk olunur ki, bu da ziyarətçilərin diqqətini cəlb edir.

Proseslə tanış olduqca işin nə qəliz və vaxtaparan olduğunu anlamaq elə də çətin deyil. Bəs görəsən Azərxalçada işləyən toxucular hansı meyarlar nəzərə alınaraq işə cəlb ediliblər?

Mətbuat katibi cavab olaraq qeyd etdi ki, Azərxalçanın əsas kadr potensialı regionlarda yaşayan qadın toxuculardır. Hansı ki, onların da yaşı 16-dan 77-yə qədərdir:

"Bizim müxtəlif rayonlarda emalatxanalarımız var. Əsas kadr potensialımız da regionlarda yaşayan toxucu qadınlardır. Bizdə işləmək üçün yaş fərqi yoxdur. 16 yaşından tutmuş, 76-77 yaşa qədər toxucularımız var.

Quruma yeni sədr təyin edildikdən sonra xalçaçılarımız arasında attestasiya keçirildi. Bu sayədə peşəkar toxucular işə cəlb olundu və əməkhaqqıları yaxşılaşdırıldı".

Yeri gəlmişkən, burada klassik xalçalarla yanaşı müasir üslublu modern xalçalar da toxunur. Onlar, ənənəvi xalçalardan, öz rəngləri və işləmələri ilə bir qədər seçilirlər. Müsahibimizin sözlərinə görə, indi belə xalçalara tələbat daha yüksəkdir.

### Qadın toxucularla söhbət

**Məkanla tanış olduqdan sonra, rəngarəng ipləri sürətli şəkildə bir-birinə keçirən "əli qızıldan" olan toxucu qadınlara yaxınlaşıb söhbət etmək fürsəti də qazandıq.**

Toxucu Naibə Kərimova 14 yaşından bəri bu işlə məşğul olduğunu söyləyir:

"İndi 54 yaşındayam, 14 yaşımdan bəri isə xalça toxuyuram. Mən Hökməli kəndində doğulub, böyümüşəm. Uşaq olanda bacım evdə xalça toxuyardı, ondan öyrənmişəm. Dərs vaxtı məktəbə gedirdik, evə gələndə də xalça toxuyurduq. Sözün açığı heç məktəblə maraqlanmamışam. Dərsdə olanda da yarı canım xalçanın yanında qalırdı".

Naibə xanım hazırda ipək saplarla işləyir. Toxucunun sözlərinə görə, ipək xalçaların toxunması çətin olduğuna görə hazırlanması bir qədər gec başa gəlir:

"Hazırda üzərində işlədiyimiz xalçanın eni 120, uzunluğu isə 171 santımetrdir. Onun hazırlanması 5-6 ay vaxt aparır. İpək xalçaların ilmə sayı da yun xalçalardan fərqlidir, ipəklərdə ilmə daha çox olur".

Toxucu Sevinc Osmanova isə bu işə lap kiçik yaşlarından başlayıb. Loru dillə desək, gözünü açıb evdə xalça toxunduğunu görüb. Anası və özündən böyük dörd bacısı da toxucudur. Elə peşəsinə də onlar sayəsində yiyələnib.


Foto: "HƏFTƏ İÇİ"

"Beş yaşımız olanda biz artıq ilmə vurmağı bilirdik. İndiyə qədər hazır olması ən uzun çəkən işimiz 5 metrlik ipək xalça idi. Biz onu beş nəfərə təxminən 2 il 6 aya toxuyub bitirdik".

Sənətinin incəliklərindən söz açan həmsöhbətimiz xalçaların insan həyatına təsirinə və onların auralarına inananlardandır:

"Xalça gözlədilməyi sevmir. O, eqoistdir. Buna görə də, eyni vaxtda iki xalçanı toxumağa başlamaq demək olar ki mümkünsüzdür. Xalça toxucudan sevgi gözləyir. Biz xalça toxuyan vaxt, başqa hadisədən danışırıqsa, yaxud da, başqa bir şey düşünürüksə mütləq səhv edirik. Mən xalçaların aurasına və insanlara təsirinə çox inanıram. Elə düşünürəm ki, evdə xalçası olan adamların başına pis hadisələr gəlmir. Xalça ebin ağır abhavasını götürür. Keçmiş inanışa görə, üzərində əjdaha simvolu olan xalçalar evi qoruyub. Qədim toxucular da belə xalçaları toxuyan zaman niyyətləri əjdaha simvollu xalının evi qoruyacağı olub. Onu da deyim ki, biz xalça toxuyan vaxt əhval-ruhiyyəmiz aşağıdırsa bu xalçalara da yansıyır. Ona görə də şən əhval ruhiyyə ilə ərsəyə gələn xalılar öz gözəlliyi ilə seçilirlər".

### Yeri gəlmişkən...

**Prezident İlham Əliyevin 28 fevral sərəncamı ilə rəsmiləşən dövlət proqramına əsasən "Azərxalça" ASC üçün həyata keçiriləsi vəzifələr belə müəyyən olunub:** xalçaçılığın xammal təminatının yaradılması; xalçaçılığın infrastruktur təminatının yaxşılaşdırılması; yeni iş yerləri yaradılmasının dəstəklənməsi; xalçaçılıq sahəsində, o cümlədən yun emalı, yun və ipək ipliklərin hazırlanması, boyaq bitkilərinin emalı və boyaq maddələrinin istehsalı üzrə ixtisaslı kadr hazırlığının həyata keçirilməsi; regionların xalçaçılıq potensialının gücləndirilməsi; "Azerbaijan carpet" ("Azərbaycan xalçası") ölkə brendinin yaradılması, tanıdılması və inkişaf etdirilməsi; xalçaçılığın rəqabət qabiliyyətinin artırılması; xalçaçılığın ixrac potensialının artırılması; Azərbaycanın tarixi xalçaçılıq mərkəzlərinə xas olan qədim çeşnilərin bərpa edilməsi, istehsalatda tətbiqi, yeni çeşnilərin hazırlanması və bu çeşnilər əsasında xalçaların toxunması.

"Azərxalça" ASC üzərinə düşən vəzifələr sırasında xalçalarımızın ölkə daxili və xaricində satışı, təbliği, Azərbaycan xalçasının ölkə xaricində təbliğatı, onun bizim mədəniyyətimizin, milli mədəni irsimizin ayrılmaz hissəsi olmasını nümayiş etdirmək yolunda bir çox uğurlu işləri görməklə yanaşı uğurlu işlər üzərində çalışır.

İşğaldan azad olunmuş ərazilərdə xalçaçılıq sənətinin inkişaf etdirilməsi məsələsinə gəldikdə isə Azərxalçadan bildirildi ki, işğaldan azad olunmuş torpaqlar bir sözlə Qarabağ bölgəsi Azərbaycanın ən qədim xalçaçılıq ənənələrinə malik regionlarındandır. Qarabağ yenidən bərpa olunduqca, həyat geri döndükcə təbii ki, xalçaçılıq sahəsində də lazımlı bütün addımlar atılacaq. - "Biz inanırıq ki, Qarabağ xalçaları yenidən öz gözəl vətənində, Şuşada toxunacaq", - deyə Xatuna Abdullayeva əlavə etdi.

Onu da vurğulayaq ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"a əsasən maddi və mədəni irsimiz - xalçaçılıq sənətinin qorunması və davamlı inkişafı bizim əsas görüləcək işlərimizdən biridir. Azərbaycan xalçalarının ölkə xaricində satışı və sərgisini təşkil etmək xalçaların tanıdılmasının ən effektiv yoludur. Hazırda "Azərxalça" ASC-nin Çin, Cənubi Koreya, Moskva kimi yerlərdə satış mərkəzləri fəaliyyət göstərir. BƏƏ, "EXPO 2020 Azərbaycan" pavilyonunda sərgi davam etdiyi müddətcə xalçalarının satış nöqtəsi fəaliyyət göstərirdi. Bu yaxınlarda Bruney, Səudiyyə Ərəbistanı, Avstraliya kimi ölkələrə xalçaların satışı baş tutub.

"Azərxalça" ASC Azərbaycan xalçalarının daha geniş miqyasda tanınması üçün QR kod sistemi tətbiq edir. Toxunan xalçaların hər birinin arxasında xüsusi QR kodlar yerləşdirilir. Xalçaların üzərinə yerləşdirilən QR kodlara telefonun kamerasını yaxınlaşdırmaqla xalça haqqında məlumatları öyrənmək olar. Burada xalçanın adı, növü, istifadə edilən materiallar, ölçüsü, inventar, tarixi, toxunma yeri, fotoları qeyd olunub. Azərxalça"nın xalçaları haqqında reyestrdəki məlumatlar məhdudiyyətsizdir. Eyni zamanda bütün xalçaların özünün sertifikatı və sənədi olur. QR kod isə bu məlumatların istənilən yerdə əlçatan olması üçün daha əlverişli sistemdir.

**Üstünlük:** Azərbaycan xalçası adı altında xaricdə istehsal edilən saxta xalçaların ölkəmizə idxalının və satışının qarşısının alınması, bu sahədə qaçaqmalçılıq halları ilə ciddi mübarizədə "Azərxalça" nın QR kod sisteminin tətbiqi müsbət nəticə verəcəyinə inanırıq.


Foto: "HƏFTƏ İÇİ"

✍ **Banu**

---

## Aktual

***Ötən il 17 iyunda ölkə başçısının fərmanı ilə Təhsil Tələbə Kredit Fondu yaradıldı. Fondun əsas məqsədi, əsasən, ödənişli əsaslarla təhsil alan tələbələr üçün təhsil krediti verməkdir. Bir ildir ki, təhsil haqqını maddi cəhətdən ödəməkdə çətinlik çəkən tələbələr bu kreditlərdən yararlana bilirlər. Onu da nəzərinizə çatdıraq ki, Təhsil Tələbə Krediti Fondunun nizamnamə kapitalı 80 milyon manat nəzərdə tutulub. Qanunvericilik çərçivəsində nizamnamə kapitalına əlavə vəsait cəlb oluna bilər.***

# Tələbə adı qazananlar təhsil kreditindən necə yararlanacaq



Bəs görəsən, növbəti tədris ilindən etibarən, universitetlərə yeni qəbul olan gənclərin təhsil krediti almaq üçün edəcəkləri müraciətlərdə hər hansı gecikmələrin yarana ehtimalı varmı? Prosesin sürətləndirilməsi üçün hansı işlər görülməlidir?

■ **Məsələ ilə bağlı Hafta.az-a açıqlama verən təhsil eksperti Elçin Əfəndi söylədi ki, təhsil kreditlərinin verilməsi ilə bağlı nəzərdə tutulan say 98 430 nəfərdir:**

"Ötən ildən başlayaraq tələbələrə təhsil kreditinin verilməsinə başlanılıb. Bu sayədə tələbələr kreditdən yararlanaraq təhsil haqqılarını ödəyə bildilər. Sırf tələbə krediti götürə bildi deyə, təhsilini dayandırmayan şəxslər belə oldu. Hazırda ölkəmizdə 146373 tələbə ödənişli əsaslarda təhsil alır. Ümumi tələbə sayını təxminən 246000 götürsək, qalan təxmini 100060 tələbə isə dövlət təhsili alır. Bundan başqa, elə xüsusi statuslu (məs. sağlamlıq imkanları məhdud)tələbələr də var ki, onlar təhsil haqqının bir hissəsindən azaddırlar. Tələbəyə təhsil kreditinin verilməsi ilə bağlı işlər aparılır. Təhsil kreditlərinin verilməsi ilə bağlı nəzərdə tutulan təxmini say 98430 nəfərdir. Təəssüflər olsun ki, tələbələrin hamısı bu kreditlərdən yararlana bilmirlər. Çünki burada təhsil krediti düşən tələbələrin sayı 56300-ə qədərdir. Bunların da, 4465 nəfəri bakalavr, 5526 nəfər magistr, 10317 nəfər isə subbakalavr pilləsində təhsil alır. Sayən belə az olmasına səbəb isə tələbələrin kəsirlərinin olmasıdır. Fikrimcə, burada əsas məsuliyyət universitetlərin üzərinə düşür. Onlar çalışmalıdırlar ki, tələbələrin kəsri olmasın".

Növbəti tədris ilindən, daha doğrusu bu il ödənişli əsaslarla universitetlərə qəbul olan tələbələrin tələbə krediti alan zaman qarşılaşa biləcəyi problemlərə gəldikdə isə, ekspert hesab edir ki, bu məsələyə Təhsil Tələbə Krediti Fondu daha həssas yanaşmalıdır:

"Onlar tələbələrə kreditlərin verilməsi prosesini sürətləndirməlidir. Hələ ki, belə çətinliklərin yaranacağı düşünülsə də, fikrkmcə fond bütün bu məsələlərin qarşısını ala bilər".

■ **Bəs görəsən banklar tələbələrin kütləvi müraciətlərinə hazırdılarmı? Bu sualdan yola çıxaraq, məsələnin iqtisadi və bankçılıq tərəflərini iqtisadçı ekspert Xalid Kərimliyə sorduq.** Ekspert söylədi ki, məsələ Mərkəzi Bankın nəzarətində olduğundan və bir çox bankın infrastukturu yüzlərlə kreditin verilməsinə imkan verdiyindən proseslə bağlı elə də bir çətinlik yaşanacağını ehtimal etmir:

"Bu kreditləşmə dövlət resursu hesabına həyata keçiriləcək. Mən burada elə də çətinlik yaranacağını düşünmürəm. Doğrudur proses yeni olduğundan bir qədər təcrübə formalaşacaq. Bankların artıq 30 ildən uzun müddət Azərbaycan bazarında olması onların texnoloji olaraq inkişaf etməsinə, xidmət təşkili üzərində nəzarətin formalaşmasına bakların kredit müraciətlərinə şəffaf şəkildə reaksiya verməsinə şərait yaradıb. Razıyam ki, ilk dövürdə böyük kütlə banklara müraciət edəcək. Ancaq, banklar buna indidən hazır olmalıdırlar".

> *"Təhsil kreditlərinin verilməsi ilə bağlı nəzərdə tutulan say 98 430 nəfərdir*

> *Ödənişlərlə bağlı Təhsil Nazirliyi də tələbələrə bir qədər möhlət verə bilər*

X.Kərimli, mövzu ilə bağlı bir məqamı xüsusi vurğuladı. Bu da, prosesdə banklarla yanaşı, universitetlərin və Təhsil Nazirliyinin tələbələrə, müəyyən gecikmələr olduğu halda möhlət verməsi məsələsidir:

"Fikrimcə, müvəqqəti sıxlıq yaşanacağı ilə əlaqədar banklar əlavə işçiləri bu prosesə cəlb etməlidirlər. Yəqin ki, onlar bu hadisələri öncədən planlaşdırırlar.

İlkin period olduğunu nəzərə alaraq düşünürəm ki, ödənişlərlə bağlı Təhsil Nazirliyi də tələbələrə bir qədər möhlət verə bilər. Burada əsas məsələ tələbələrin hüquqlarının qorunmasıdır. Bu baxımdan hesab edirəm ki, həm maaliyə sektoru, həm də Təhsil Nazirliyi və universitetlər məsələyə daha həssas yanaşacaqlar".

✍ **Banu**

# Ali təhsil sisteminə örnək universitet

***Bu** günlərdə Gəncənin simvollarından birinə çevrilmiş Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) olduq. Açıq deyəcəyəm: indiyədək ölkəmizdəki çox ali təhsil müəssisəsində olmuşam, amma şəxsən ADAU-nun bənzərini görməmişəm. Olduqca geniş ərazidə cəmlənən tədris korpusları, xarici görünüşü kimi daxili də göz oxşayan tələbə yataqxanaları, tədris-təcrübə mərkəzləri ilə vahid kompleks təşkil edir. Eynilə Türkiyə, Avropa universitetlərində olduğu kimi.*



## Reportaj

Sirr deyil ki, hazırda Azərbaycan universitetlərində iyunun 1-də başlayıb iyulun 5-də başa çatacaq yaz imtahan ssesiyası davam edir. Sadə dillə desək, tələbələr buraxılış imtahanı verirlər. Elə ADAU-da olmağımızın bir səbəbi də məhz imtahanların necə keçirildiyini görmək idi.

Bu yerdə haşiyəyə çıxaraq qeyd edim ki, hər bir universitet kimi, bəzən ADAU haqqında da xoşagəlməz fikir formalaşdırmağa cəhd edənlər olur. Xüsusilə də smestr imtahanları başlayanda. Bu səbəbdən də imtahan prosesini izləmək şəxsən mənə ikiqat maraqlı idi.

### Açıqqapılı imtahan otaqları

**İlk olaraq Baytarlıq Təbabəti fakültəsinə gəldik. Ayrı-ayrı auditoriyalarda iki fərqli ixtisas üzrə şifahi imtahan gedirdi.**

Bilet çəkərək növbəsini gözləyən tələbələr arasında cavab verməyə səbirsizlənənlər də vardı, bəxtinə düşən suallara baş sındıranlar da. Amma imtahan prosesində açıq-şəffaf atmosfer yaradıldığını nəzərə alsaq, inanmaq olardı ki, burada hər hansı xoşagəlməz, qanunsuz hərəkətlərə yol verilmir. Bu arada qeyd edək ki, imtahanların obyektivliyini, eləcə də sessiya zamanı daxil olan şikayətləri yerindəcə araşdırmaq məqsədilə apellyasiya komissiyası yaradılıb. Əgər hansısa tələbənin etirazı və iddiası olarsa həmin komissiyaya şikayət edə bilər.

Ümumiyyətlə, imtahan prosesini izləmək üçün heç kimə məhdudiyyət qoyulmur. İstənilən media təmsilçisi, valideynlər və digər ictimaiyyət nümayəndələri ADAU-da imtahan proseslərini izləyə bilər. Özü də bu təşəbbüsü universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov şəxsən irəli sürüb...

Digər auditoriyada da eyni atmosfer hökm sürürdü. Hətta biz içəri daxil olanda imtahan verməmiş cəmi iki tələbə qalmışdı. Onlardan birini - Türkiyə vətəndaşı olan tələbənin cavabını dinlədik. Olduqca sərbəst, savadlı, yaxşı nitq qabiliyyətinə malik idi və hətta verdiyi cavablar imtahan götürən müəllim tərəfindən 8 balla qiymətləndirildi.

Fürsət tapıb imtahan götürən müəllimlə bir-iki ağız söhbətləşdik. Məlum oldu ki, imtahanda yüksək nəticə göstərən tələbələrin sayı kifayət qədərdir - onların verdiyi cavablar 10 balla qiymətləndirilib. Amma hər yerdə olduğu kimi, burda da zəif nəticə göstərənlər olub ki, onların irəlidə hazırlaşmaq üçün vaxtları olacaq.

Baytarlıq Təbabəti fakültəsində daha bir imtahan vardı. Universitet nümayəndələrinin müşayiətilə tədris korpusunun dördüncü mərtəbəsində yerləşən imtahan keçiriləcək auditoriyaya qalxdıq. Bu dəfəki imtahan əvvəlkilərdən fərqli olaraq test üsulu ilə təşkil olunmuşdu. Artıq prosesə hazırlıq görülmüşdü: hər bir masanın üstündəki tam işlək vəziyyətdə olan noutbuklar tələbələri gözləyirdi.

Bu imtahan üsulu da maraqlıdır. Deməli, auditoriyaya daxil olarkən hamı adəti üzrə telefonlarını girişdəki masanın üstünə qoyur. İmtahan zamanı kiminləsə danışmaq, nə isə soruşmaq yasaqdır.

Budur, hər kəs şəxsi kabinetinə daxil olaraq təqdim edilmiş test suallarına cavab axtarır. Burada tələbənin müəllimlə və ya başqa kiminləsə ünsiyyətdə olması mümkünsüzdür. Necə deyərlər, zəhmət çəkib dərsini oxuyan savadına güvənib qiymətini alacaq. Test üsullu imtahanların bir müsbət keyfiyyəti də odur ki, tələbələr imtahanın sonunda verdiyi cavablara uyğun olaraq, avtomatik şəkildə neçə bal topladığını, el diliylə desək, neçə aldığını öyrənir.

### "Burada hər şey şəffafdır..."

**Universitetdə olarkən dəhlizdə toplaşmış tələbələrdən bir neçəsi ilə ayaqüstü həmsöhbət olduq. Türkiyədən gəlmişdilər. Əczaçılıq fakültəsinin 1-ci kursunda oxuduğunu deyən Əhməd Ertəkin (Ahmed Rauf Ertekin) bildirdi ki, verəcəyi bütün imtahanlara hazırdır.**



Foto: "HƏFTƏ İÇİ"

Çünki smestr boyu müəllimlərin mühazirələrini diqqətlə dinləyib, zəhmət çəkib dərslərini oxuyub. Əlində tutduğu imtahana buraxılış vəsiqəsini də göstərdi - imtahana giriş balı bütün fənlər üzrə 38-40 bal idi, hətta 45 olanı da vardı.

***- Dərslərin necə gedir, çətinlik filan olurmu? - Soruşdum.***

- Yox, nə çətinlik, hər şey qaydasındadır. Günün böyük hissəsini dərslərlə məşğuluq, heç şəhərə çıxmağa vaxtım qalmır...

***- Müəllimlərin sizə münasibəti necədir?***

- Hamısından məmnunam. Mən türkəm, onlardan dəstək hiss edirəm, çox mehriban davranırlar. Bu da mənə stimul verir.

***- Yüksək qiymət yazmaq müqabilində sizdən nəsə uman olur?***

- Artıq bir ildir burada təhsil alıram, heç vaxt belə bir davranışın şahidi olmadım. Səmimi deyirəm: hətta tələbə dostlarımdan da belə bir şey eşitməmişəm. Burada hər şey şəffafdır, kimsə deyirsə ki, pulla nəsə əldə etmək olar, yalandır.

Söhbətimizin bu yerində başqa bir gənc də yaxınlaşdı. Tanış olduq - Furkan Tanguner idi. O da Əczaçılıq fakültəsinin 1-ci kursunda təhsil alır. O da eynilə Əhməd kimi, dedi ki, oxuyan üçün qiymət almaq çətin deyil, oxumayan isə zəhmət çəkib imtahana hazırlaşır, kəsilsə, təyin olunacaq vaxtda ikinci dəfə imtahan verəcək.

Furkan da bildirdi ki, Türkiyədən bura oxumağa gəlib, valideynləri onun gələcək karyerası üçün narahatdırlar. Bu səbəbdən də yaxınlarının ümidini doğrultmağa çalışacaq. Yadıma çox məşhur bir biznes adamının sözü düşdü. Vaxtilə həmsöhbət olduğum hindistanlı iş adamlarından biri deyirdi ki, sitat: Orta məktəblər və universitetlər insana sadəcə elm öyrədir və onlar öyrəndiklərinin imtahanı yalnız işə qəbul zamanı verirlər. Artıq heç bir işverənə savadsız kadr lazım deyil.

Başqa bir neçə nəfərlə də söhbətləşdik. Bəlli oldu ki, indi Azərbaycanda istənilən ixtisasda kadr yetişdirən çox sayda universitet var. Amma aqrar sahəni özündə cəmləyən tək bir ali təhsil müəssisəsi mövcuddur ki, bu da ADAU-dur. Tələbələr qeyd etdilər ki, indi çoxları hüquq, beynəlxalq münasibətlər və sair kimi ixtisaslar dalıyla qaçsalar da, əslində ölkədə ən böyük iş yeri məhz kənd təsərrüfatı sahəsindədir. Bu gün Azərbaycanda və dünyada aqrar sektorun savadlı kadrlara ehtiyacı böyükdür. Bu da o deməkdir ki, ADAU-nu bitirən gənclər sabah işsiz qalmayacaqlar...

### Müasir yataqxanalar

**Universitetin tələbə yataqxanasına gəldik. Hər kəsə bəllidir ki, hazırda ölkədəki bütün universitetlərin ən böyük problemi məhz tələbə yataqxanalarının olmamasıdır.** Hansı ki, bu, tələbələrə sosial çətinliklər yaradır və bu da öz növbəsində dolayısıyla onların təhsilinə mənfi təsir göstərir. Bu mənada ADAU Azərbaycanın ali təhsil sisteminə örnək sayıla bilər.

Yeri gəlmişkən, xatırladaq ki, ADAU-nun 520 yerlik birinci müasir tələbə yataqxanasının - "Tələbə evi"nin açılışı 2016-cı ildə reallaşıb və onun açılışında hətta həmin vaxt Gəncədə səfərdə olan prezident İlham Əliyev şəxsən iştirak edib. Kompleksin mövcud beş korpusundan dördü 7, biri isə 6 mərtəbəlidir. Yataqxanadakı 257 otağın 251-i iki nəfər, altısı isə üç nəfərin qalması üçün nəzərdə tutulub.

ADAU-nun ikinci tələbə yataqxanası isə 2017-ci ilin noyabrında istifadəyə verilib. Prezident İlham Əliyevin iştirakı ilə açılan 514 yerlik ikinci tələbə evi də dördü 7, biri 6 mərtəbəli olmaqla beş korpusdan ibarətdir. Kompleksdəki 257 otağın hamısı əvvəlki yataqxanada olduğu kimi, zəruri mebel və inventarla təchiz edilib. Hər iki binanın birinci mərtəbəsində qeydiyyat şöbəsi, akt və fitnes zalları, kafe, məişət və ticarət xidməti obyektləri, kitabxana, müayinə otağı və stomatoloji kabinet, valideynlərlə görüş otağı yaradılıb. Üstəlik, hər mərtəbədə ayrıca mətbəx fəaliyyət göstərir.

### Tələbələrə maddi dəstək

**ADAU-da tələbələri dərslərini daha yaxşı oxumağa həvəsləndirmək və dolayısıyla sosial təminatlarını gücləndirmək üçün bir sıra addımlar atılır. Bunlardan biri tələbələrin imkan daxilində yataqxanada yerləşdirilməsidirsə, digər təqaüdlə təmin olunmalarıdır.**

Yeri gəlmişkən, ADAU-da dövlət sirafişli ixtisaslarda təhsil alan tələbələr aylıq təqaüdlə təmin olunurlar. Kənd Təsərrüfatı Nazirliyinin təşəbbüsü ilə aqrar təhsilə marağın artırılması üçün univesitetə kənd təsərrüfatı ixtisasları üzrə yüksək balla qəbul olan tələbələrə əlavə təqaüd verilir. ADAU Elmi Şurasının qərarına əsasən, 2021-2022-ci tədris ilində qəbul imtahanlarında 400 və daha çox bal toplayaraq qəbul olanlar 150 manat, 500 və daha çox bal toplayanlar isə 250 manat əlavə təqaüdlə təmin edilir. Hansı ki, əvvəllər həmin kateqoriyadan olan tələbələrə müvafiq olaraq 100 və 200 manat əlavə təqaüd ödənilirdi.

Bununla yanaşı, Elmi Şuranın qərarına əsasən qeyri-kənd təsərrüfatı ixtisaslarına 500 və daha çox balla qəbul olunmuş tələbələrə 120 manat, 400-499 balla qəbul olunmuş tələbələrə 80 manat məbləğində büdcədənkənar vəsait hesabına əlavə təqaüd verilib. Universitetdə təhsil göstəriciləri yüksək olan tələbələrə rəhbərlik tərəfindən diqqət və qayğı göstərilir. Belə ki, imtahan sessiyaları zamanı altı fəndən maksimum nəticə göstərmiş tələbələrə 150 manat, ingilisdilli ixtisaslarda təhsil alanlara isə ayda 100 manat məbləğində əlavə təqaüdün verilməsi nəzərdə tutulur. Hansı ki, 2021-ci ilədək analoji kateqoriya tələbələrə müvafiq olaraq 100 və 70 manat əlavə təqaüd verilib.

Bundan başqa, "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Prezidentinin sərəncamına əsasən Təhsil Nazirliyinin müvafiq əmri ilə ADAU-ya 547 əlavə təqaüd yeri ayrılıb.

### Yüzillik şərəfli yol

**ADAU Azərbaycanın ən qədim və köklü ali təhsil ocaqlarındandır. İndiki Azərbaycan Dövlət Aqrar Universiteti Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1929-cu il 15 may tarixli qərarı ilə Kənd Təsərrüfatı fakültəsinin bazasında Azərbaycan Kənd Təsərrüfatı İnstitutu kimi təsis edilsə də, əslində onun tarixi cümhuriyyət illərinə təsadüf edir və bu haqda arxivlərdə çox sayda sənədlər də saxlanılır. Kənd Təsərrüfatı İnstitutu əvvəllər Bakıda fəaliyyət göstərsə də, 1931-ci ildə Gəncəyə köçürülüb.**

Yarandığı gündən indiyədək, yəni 100 il ərzində ADAU ölkəmizin aqrar sektoru üçün 70 mindən çox yüksəkixtisaslı mütəxəssis hazırlayıb. Bu dövr ərzində ADAU-nun yetişdirdiyi kadrlar arasında ruslar, ukraynalılar, belaruslar, gürcülər, türklər, ləzgilər, yəhudilər, tatarlar, yunanlar və başqa millətlərin nümayəndələri olub.

Yeri gəlmişkən, elə indi də universitetdə MDB respublikalarından, Yaxın Şərq, hətta Afrika ölkələrindən tələbələr təhsil alır.

Fəaliyyəti dövründə bu ali təhsil ocağından məzun olanlardan 13-ü AMEA-nın həqiqi üzvü, 10-u müxbir üzvü seçilib. Görkəmli məzunlardan akademiklər Həsən Əliyev, İmam Mustafayev, Validə Tutayuq, Firuz Məlikov, İlyas Abdullayev, Ələkbər Quliyev, Musa Musayev və onlarla digərlərinin adını çəkmək olar.

Hazırda ADAU-nun 8 fakültəsi, 37 kafedrasında 550-dən çox professor-müəllim heyəti çalışır, bakalavriat, magistratura və doktorantura səviyyələrində 33 ixtisas, 75 ixtisaslaşma üzrə 6 mindən çox tələbə əyani və qiyabi təhsil formalarında təhsil alır. Tədris 6 ixtisasda ingilis, 10 ixtisasda rus dilində aparılır və 14 ixtisas üzrə mütəxəssis hazırlığı yalnız dövlət sifarişi ilə həyata keçirilir. Universitet dünyanın 20-dən çox ölkəsinin 100-dək universiteti ilə əməkdaşlıq edir.

***✍ Vüsal Tağıbəyli***

***P.S.** Universitetdə çəkdirdiyim şəkli görən, hazırda ölkəmizdəki universitetlərdən birinin tarix fakültəsində üçüncü kursu bitirməkdə olan tələbəsi və yaxın qohumun Şövkət Məmmədova dedi ki, sitat: ADAU bizim tələbələr arasında çox məşhurdur. Deyirlər ki, Azərbaycanda rüşvət alınmayan və şəffaf sistem yaradılan cəmi iki universitet var. Onun biri ADAU-dur...*

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏLTİFİ



Elman Sirac oğlu Rüstəmov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib. Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb. O, Azərbaycan Respublikasında bank işinin inkişaf etdirilməsindəki xidmətlərinə görə təltif olunub. Qeyd edək ki, sabah Elman Rüstəmovun 70 illik yubileyidir.

### Həftənin GÜNAHSIZI



Qırğızıstanın keçmiş Prezidenti Almazbek Atambayevə bəraət verilib. Bişkekin Pervomayski rayon məhkəməsi eks-prezidenti 2020-ci ilin payızında Bişkekdə baş vermiş kütləvi iğtişaşlara görə təqsirləndirmişdi. Məhkəmə sabiq prezidentin ev dustaqlığına buraxılması barədə qərar çıxarıb. Onun ölkədə kütləvi iğtişaşların təşkilində təqsiri sübuta yetirilməyib. Qeyd edək ki, prokuror Almazbek Atambayevə 12 il həbs cəzası təklif edirdi.

### Həftənin HƏDİYYƏSİ



Türkiyənin "Baykar" şirkəti tərəfindən 3 ədəd "Bayraktar TB2 S/PUA" Ukrayna xalqına hədiyyə edilib. Bu barədə şirkətin mətbuat xidmətinin məlumatında deyilir. "Baykar" olaraq toplanan ianələrlə alınması nəzərdə tutulan 3 ədəd "Bayraktar TB2 S/PUA"nı heç bir ödəniş etmədən Ukraynaya bağışlayırıq. Bu məqsəd üçün toplanan bütün ianələrin Ukrayna xalqının xeyrinə istifadə olunmasını xahiş edirik", - deyə məlumatda qeyd olunur.

### Həftənin MƏHKUMU



Almaniyanın Zaksenhauzen həbs düşərgəsinin keçmiş mühafizəçisi, 101 yaşlı Jozef Şuts 5 il müddətinə azadlıqdan məhrum edilib. Məlumata görə, Şuts 1941-ci ilin oktyabrından 1945-ci ilin fevralına qədər sözügedən həbs düşərgəsində xidmət edib. Məhkəmənin qərarına görə, keçmiş mühafizəçi 3516 dustağın qətlə yetirilməsində iştirak edib.

### Həftənin İMTİNASI




ATƏT-in Minsk qrupunun rusiyalı həmsədri Qarabağı müzakirə etməklə bağlı təklifi qəbul etməyib. Bu barədə ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə bürosunun məlumatında qeyd olunub.

"ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri bu gün öz həmkarları ilə Qarabağın gələcəyini müzakirə etmək üçün söhbət aparıb. Təəssüflər olsun ki, rusiyalı həmsədr təklifi qəbul etməyib. Biz Minsk qrupunun işinin davam edəcəyinə ümid edirik", - deyə məlumatda vurğulanıb.

### Həftənin QALİBLƏRİ




İyunun 23-dən 25-dək Xorvatiyanın Poreç şəhərində keçirilən yeniyetmələr arasında cüdo üzrə Avropa çempionatının fərdi yarışları başa çatıb. Azərbaycan cüdoçuları bu yarışda tarixi nəticə əldə edərək yeniyetmə oğlanlar arasında komanda hesabında birinci yeri tutub.

### Həftənin XƏZİNƏAXTARANI



Hollivud ulduzu Bred Pitt "GQ" jurnalına müsahibəsində malikanəsinin həyətində xəzinə axtardığını etiraf edib. Aktyorun sözlərinə görə, kimsə ona evinin bağçasında milyonlarla dollar dəyərində nəhəng bir xəzinənin basdırıldığını deyib. Pitt radar avadanlığı aldığını və bir il ərzində malikanəsinin bağçasında xəzinə axtardığını və ona aludə olduğunu söyləyib.

***✍ Azad Əliyev***

## GÜNÜN FOTOSU



**"G7" liderlərinin sammitindən**

"

## Tələbə adı qazananlar təhsil kreditindən necə yararlanacaq

**Xalid Kərimli,**
iqtisadçı ekspert

Ödənişlərlə bağlı Təhsil Nazirliyi də tələbələrə bir qədər möhlət verə bilər.

▸▸ Səh. 7

## STATİSTİKA




**■ 2022-ci ilin yanvar-may aylarında istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 21,7 milyard manat olmaqla 2021-ci ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 4,7 faiz artıb.**

Qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 2021-ci ilin eyni dövrü ilə müqayisədə 4,8 faiz artaraq 20,9 milyard manata bərabər olub.



▸▸ Səh. 7

## Xalça dünyasına səyahət